QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 022 (5494) 3 **fevral** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**


# Türkiyə-Azərbaycan birliyi bu gün ən yüksək zirvədədir

*Prezident İlham Əliyev: “Bu gün Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı və birliyi bölgə üçün önəmli amildir və sabitləşdirici rol oynayır”*



Səh 2


“LIVEJOURNAL”: Cənubi Qafqazın ən nüfuzlu xanımı



3

2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təntənəli mərasim keçirilib



4

Oqtay Əsədov: TürkPA dialoq üçün mühüm platformadır



5

“Hava limanlarında “ASAN Viza”nın tətbiqi prosesin şəffaf həyata keçirilməsinə yönəlib”



5

“Hüseyn Cavid-135” şeir müsabiqəsinin qalibləri mükafatlandırılıb



6

Oktay Səmədov: “Bilik Fondu fəaliyyətini daha da təkmilləşdirmək əzmindədir”



8

5

Ölkə əhalisi tibbi müayinələrə cəlb ediləcək



14

“Meydan” TV Rəsul Quliyevlə Hüseyn Abdullayevi bir-birinə vurdu



16

Azərbaycan Qran Prisinin turnir cədvəli açıqlanıb



# Türkiyə-Azərbaycan birliyi bu gün ən yüksək zirvədədir

## *Prezident İlham Əliyev: "Bu gün Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı və birliyi bölgə üçün önəmli amildir və sabitləşdirici rol oynayır"*



Müasir dövrdə Azərbaycanın ən etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycanla onun tarixi strateji müttəfiqi olan Türkiyə arasında münasibətlər yüksək səviyyədə inkişaf edir və bu əlaqələr getdikcə daha da intensiv şəkil alır. Təbii ki, iki ölkə bu əlaqələrdən faydalanaraq istər region, istərsə də dünya dövlətləri ilə maraqlarının tam qorunması əsasında əməkdaşlıq qurmağa imkan verən və onu inkişaf etdirmək üçün ümumi strategiyaya əsaslanan siyasət həyata keçirir.

Azərbaycan regionda lider dövlət olmaqla bərabər, həmçinin, təhlükəsizlik, dövlətlərarası əlaqələr mərkəzinə çevrilən bir ölkədir. Bu gün Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı və birliyi bölgə üçün önəmli amildir, sabitləşdirici rol oynayır. Müstəqilliyinin cəmi 26 yaşı olan Azərbaycan Türkiyə üçün ən önəmli strateji tərəfdaşdır və iki dövlət arasındakı ticarət, siyasi, iqtisadi, təhsil, səhiyyə, hərbi, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlıq getdikcə güclənir.

Xatırladaq ki, Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyev bu əlaqələrin yüksələn xətt üzrə inkişafını təmin edirdi. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin Müqaviləsi" çərçivəsində sıx əməkdaşlıq Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. Fakt ondan ibarətdir ki, Azərbaycan regiondakı qlobal iqtisadi layihələrin həyata keçirilməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Birlikdə həyata keçirilən qlobal iqtisadi layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, TANAP və Bakı-Tbilisi-Qars Dəmir Yolu layihələri iki qardaş ölkəyə böyük dividendlər verir. Elə oktyabrın 31-də Bakıda iki ölkənin prezidentlərinin iştirakı ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası və imzalanan yeni sazişlər bütün deyilənləri bir daha təsdiqləyir.

Sözügedən iclasda iki ölkə arasında siyasi əlaqələr, beynəlxalq təşkilatlardakı birgə fəaliyyət, iqtisadi, hərbi, hərbi-texniki əməkdaşlıq, enerji, nəqliyyat məsələləri ilə bağlı mövcud durum və gələcək planlar müzakirə edildi. Dövlət başçılarının iştirakı ilə iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlığa dair anlaşma memorandumu, təhsil sahəsində əməkdaşlıq haqqında saziş, preferensial ticarət sazişinin imzalanmasına dair anlaşma memorandumu, müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, yem bitkiləri toxumu istehsalı və sertifikatlaşdırılması sahəsində əməkdaşlıq haqqında saziş imzalandı.

İki ölkə arasında hərbi-texniki sahədə birgə fəaliyyət davam edir. Türkiyənin gündən-günə inkişaf edən hərbi-sənaye kompleksi Azərbaycan üçün böyük maraq kəsb edir və ölkəmiz Türkiyədən hərbi təyinatlı məhsulları alır və bundan sonra da alacaq. İqtisadi sahədə imzalanmış sənəd də böyük əhəmiyyət kəsb edir. Preferensial, yəni imtiyazlı ticarət sazişi böyük məna daşıyır. Bu sazişin qüvvəyə minməsi nəticəsində iki ölkə arasında olan ticarət dövriyyəsi də böyük dərəcədə artacaq. İki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşu da yüksəlir. Bu günə qədər Azərbaycandan Türkiyəyə 10 milyard, Türkiyədən Azərbaycana isə 11 milyard dollar sərmayə qoyulub. Yeni sazişlər bu sərmayələrin həcmini artıracaq və Azərbaycandan Türkiyəyə yatırılacaq sərmayənin 20 milyard dollara çatdırılması planlaşdırılır.

Oktyabrın 31-də keçirilən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının və imzalanan sənədlərin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, dövlət başçılarının həm təkbətək görüşündə, həm nümayəndə heyətlərinin iştirakı ilə keçirilən tədbirdə Türkiyə-Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olduğu bir daha təsdiqini tapıb: "Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkə yoxdur. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı və birliyi bu gün ən yüksək zirvədədir".

Dövlət başçısı vurğulayıb ki, bu gün Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı və birliyi bölgə üçün önəmli amildir və sabitləşdirici rol oynayır. Güclənən Türkiyə Azərbaycanın gücünü artırır. Bu da, bir daha əminlik yaradır ki, hər iki ölkə bundan sonra da ancaq inkişaf, tərəqqi və qələbə yolu ilə gedəcək. Türkiyə-Azərbaycan birliyi və qardaşlığı əbədi olacaq: "Biz qarşıya qoyduğumuz hədəflərə doğru inamla irəliləyirik. Əminəm ki, TANAP layihəsi yaxın zamanlarda başa çatacaq. Bu layihənin icrası ilə bağlı heç bir problem yoxdur. Bakı-Tbilisi-Qars Dəmir Yolu layihəsi isə, artıq istismara verildi. Bu, bizim böyük uğurumuzdur, böyük qələbəmizdir. Bu, bir daha göstərir ki, Türkiyə və Azərbaycanın iştirak etdikləri və təşəbbüskarları olduqları bütün layihələr icra edilir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə vurğulayıb ki, bu gün siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə Türkiyə-Azərbaycan həmrəyliyi güclənməkdə davam edir. Qarşılıqlı səfərlər, nazirlərin intensiv görüşləri Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin və həmrəyliyin hansı səviyyədə olduğunu göstərir. Xüsusilə, son zamanlar müdafiə sənayesi sahəsindəki həmrəyliyik böyük əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan arasında ticarət dövriyyəsinin həcminin 1,6 milyard dollar olduğunu söyləyən Türkiyə Prezidenti vurğuladı ki, qısa müddətdə bu rəqəm 5 milyard dollara yüksələcək: "Türkiyə və Azərbaycan hər sahədə bu addımları atacaq. Nazirlər Kabinetimiz bir qərar qəbul edib. Qarşıya Naxçıvandan Türkiyəyə ildə 120 milyon dollarlıq idxal həcmi hədəfini qoyduq. Beləliklə, Naxçıvanı daha da inkişaf etdirmək, canlandırmaq üçün "Sən yalnız deyilsən, qardaş" deməyin, İnşallah, addımını atacağıq".

Beləliklə də, Bakıda keçirilən Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının toplantısında və dövlət başçılarının təkbətək görüşündə müzakirə edilən məsələlər iki ölkə arasındakı möhkəm və sıx əməkdaşlığı daha da gücləndirəcək. İmzalanan yeni sənədlər, şübhəsiz ki, mövcud ikitərəfli əməkdaşlığın hüquqi bazasını daha da möhkəmləndirəcək. Azərbaycan və Türkiyə Prezidentləri arasında keçirilən hər bir görüşdə əldə olunan razılaşmalar yaxın gələcəkdə region üçün pozitiv nəticələr, uğurlar və nailiyyətlər vəd edir.

Türkiyə Prezidentinin söylədiyi kimi, Azərbaycan müstəqilliyini bərpa etməsindən bu günə qədər keçən müddət ərzində Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs və Prezident İlham Əliyevin rəhbərliyi altında regionda sabitliyin, əməkdaşlığın, eyni zamanda, mədəniyyətlərarası tolerantlığın alınmaz qalasına çevrilib. Digər tərəfdən, qlobal transmilli layihələrin təşəbbüskarı və onların reallaşmasında lider mövqeyə malik Azərbaycan regionda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının da əsas təşəbbüskarı və aparıcı fiqunu kimi öz yerini və mövqeyini kifayət qədər möhkəmləndirib. Bütün bu uğurlar, əlbəttə ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə qazandığı yüksək etimad sayəsində reallaşıb. Dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirən Azərbaycanın adı, artıq inkişaf etməkdə olan ölkələr sırasında çəkilir.

***"Səs" Analitik Qrupu***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Mingəçevir Dövlət Dram Teatrının 50 illiyi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Dövlət Nəşriyyatı - "Azərnəşr"in əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Əlövsət Ağalarova "Əməkdar jurnalist" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Kamil Cəlilovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Rafiq Əzimovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Əziz İmran oğlu Əzizovun Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Dövlət başçısının digər Sərəncamı ilə Əziz Əzizov Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib.

* * *

Prezident İlham Əliyev "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 943-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev 2018-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.

# “LIVEJOURNAL”: Cənubi Qafqazın ən nüfuzlu xanımı

***Rusiyanın “LIVEJOURNAL” nəşrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirən məqalə dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.***

x x x

Bu yaxınlarda, daha dəqiq desək 2017-ci il dekabrın 26-da Moskvadakı Xilaskar İsa Kafedral Kilsə Məbədinin Taxt-tac salonunda Moskvanın və bütün Rusiyanın patriarxı Zati-müqəddəsləri Kirill Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı II dərəcəli Müqəddəs Mələksima Knyagina Olqa ordeni ilə təltif edib. Mehriban Əliyevaya bu mükafat “Rus Pravoslav Kilsəsinə yardımına və Həştərxan şəhərinin abadlaşdırılmasına göstərdiyi qayğıya görə” təqdim edilib. Bununla əlaqədar belə bir sual yaranır: Mehriban Əliyeva nə iş görüb ki, belə bir yüksək ordenlə təltif olunub. Sən demə, buna əsaslı səbəb var imiş. İnternetdə onun haqqında məlumat çoxdur. Biz Mehriban xanımın kimliyini və onu məşhurlaşdıran məsələləri araşdırmağa çalışdıq.


LIVEJOURNAL MAIN RATINGS
SUBSCRIBE

Самая влиятельная женщина Закавказья

Совсем недавно, 26 декабря 2017 года в Тронном зале кафедрального соборного Храма Христа Спасителя в Москве Святейший Патриарх Московский и всея Руси Кирилл наградил первого вице-президента Азербайджана Мехрибан Алиеву орденом святой равноапостольной княгини Ольги II степени. Церковная награды была вручена «во внимание к помощи Русской Православной Церкви и заботам о благоустроении града Астрахани». В связи с этим возникает вопрос, что же такого сделала Мехрибан Алиева, что удостоена высокой чести носить на груди подобный орден?

А оказывается есть за что. В интернете полно информации о ней, попробуем разобраться, кто же она такая и чем знаменита.

Ее называют самой влиятельной женщиной Закавказья, считают одной из икон стиля современности, и вот уже почти год она занимает пост первого вице-президента страны. Люди не перестают восхищаться мудростью и красотой этой женщины.

Onu Cənubi Qafqazın ən nüfuzlu xanımı adlandırırlar, müasir dəbin simalarından biri hesab edirlər və artıq bir ilə yaxındır ki, ölkənin Birinci vitse-prezidenti vəzifəsində çalışır. İnsanlar bu xanımın müdrikliyinə və gözəlliyinə heyrandırlar.

Mehriban Əliyeva 1964-cü il avqustun 26-da Bakıda ziyalı ailəsində anadan olub. O zaman heç kəsin ağlına da gəlməzdi ki, vaxt gələcək Mehriban xanım ən nüfuzlu siyasətçi qadınlardan biri olacaq. 1988-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib. Mehriban xanım tələbəlik dövründə Azərbaycan Respublikasının indiki Prezidenti, o vaxt hələ Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun aspiranturasında oxuyan İlham Əliyevlə ailə qurub.

Zahirən kövrək bir qadın olan Mehriban Əliyeva bütün həyatını ictimai fəaliyyətə və insanlara kömək işinə həsr edib. O, dörd ildən artıq müddətdə Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləyib, sonra, 1995-ci ildə “Azərbaycan Mədəniyyətinin Dostları” adlı xeyriyyə fondunu yaradıb və ona rəhbərlik edib, “Naslediye-İrs” adlı mədəni-tarixi jurnal təsis edib və bu nəşrin redaktoru olub.

Mehriban Əliyevanın öz ölkəsində və bütün dünyada statusunu nəzərə almamaq olmaz. Prezidentin xanımı, indi isə həm də Azərbaycanın Birinci vitse-prezidenti respublikada mühüm bir qurum olan Heydər Əliyev Fonduna başçılıq edir. 2004-cü ildə Heydər Əliyev Fondu yaradılan vaxtdan bu Fondun prezidentidir. Mehriban Əliyevanın siyasi karyerası və ictimai fəaliyyəti dövründə onun dəstəyi ilə yüzlərlə məktəb və xəstəxana tikilib. O, ehtiyacı olanlara həmişə kömək əlini uzadır.

Mehriban Əliyeva deyir: “Həqiqi mərhəmət real işlər görülməsini, konkret addımlar atılmasını tələb edir. Ən dəhşətlisi laqeydlik və biganəlikdir. Bunlar olmamalıdır. Sən istər ictimai xadim ol, istər dövlət xidmətində çalış, sadəcə, insanlığı qoruyub saxlamaq lazımdır”.

Mehriban Əliyevanın son altı ildə rəhbərlik etdiyi, imic əhəmiyyəti kəsb edən layihələrə diqqət yetirək:

**-Bakıda “Eurovision-2012”;**

**-2015-ci ildə Avropa Oyunları;**

**-2017-ci ilin mayında Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunları.**

O, Şərq ölkələrində siyasətin yalnız kişi işi olması barədə stereotipi uğurla təkzib edir. Mehriban Əliyeva karyerası dövründə dəfələrlə müxtəlif fəxri təltiflərə layiq görülüb. Məsələn, Fransa Respublikasının “Fəxri Legion Zabiti” ordeni və UNESCO-nun Qızıl “Motsart medalı”.

2005-ci ildə o, ictimai, mesenatlıq və xeyriyyə fəaliyyətinə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə sanballı töhfələrə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsinə görə Rusiyanın “Yüzilliyin mesenatları” Beynəlxalq Xeyriyyə Fondunun “Yaqut Xaç” ordeninə layiq görülüb. Azərbaycanın birinci xanımı dəfələrlə vurğulayıb ki, Rusiya ilə Azərbaycan arasında əlaqələrin uğurlu inkişafı çox vacibdir. Məhz bu səbəbdən o, Azərbaycanda rus dilinin inkişafına, respublikadakı rusdilli orta və ali təhsil müəssisələrinə bu cür qayğı göstərir. Azərbaycanın Birinci vitse-prezidentinin fikrincə, “Rusiya ilə Azərbaycan arasında münasibətlər möhkəm tarixi təməl üzərində qurulur və dostluq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq xarakteri daşıyır”.

Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi respublika isteblişmentində onun yüksək statusunu rəsmən təsbit edib. Necə deyərlər, birinci xanım dövlətdə ikinci şəxsdir. Onun bu vəzifəyə təyin edilməsinə ictimaiyyətin münasibəti birmənalı olmasa da, Azərbaycan və Rusiya xalqları bu xəbəri çox səmimi və müsbət qarşıladılar. Çünki birinci xanımın həm öz ölkəsində, həm də Rusiyada necə böyük hörmət qazanması və onun öz xalqının mənafeyi naminə gördüyü işlərə görə necə sevilməsi məlumdur. Zəngin iş təcrübəsinə malik olan Mehriban Əliyeva bu vəzifəyə təyin ediləndən dərhal sonra fəal və qətiyyətli işlərə başlayaraq ölkə Prezidentinin düzgün qərar qəbul etməsini sübuta yetirdi.

Mehriban Əliyevanın uğurları təkcə siyasi və ictimai fəaliyyətlə məhdudlaşmır. O, həm də qayğıkeş həyat yoldaşı və üç övlad böyüdən xoşbəxt anadır. Əliyevlər ailəsi nümunəvi ailədir. Təntənəli tədbirlərdə Prezident və xanımı həmişə birgə iştirak edirlər. Ailə qurmalarından 30 ildən çox keçməsinə baxmayaraq, onlar bir-birinə sevgi və qarşılıqlı hörmət hisslərini qoruyub saxlayıblar. Buna görə onlara heyran olmamaq mümkün deyil. Mehriban xanım öz ailəsini çox sevir və həmişə onun yanında olmağa çalışır, çünki onun fikrincə, məhz ailə dəyərləri birinci yerdə olmalıdır.

Bütün bunlarla bərabər, ötən illər ərzində Mehriban Əliyeva həm də dəbin həqiqi siması sayılıb. Birinci ledinin fotoşəkilləri dünyanın moda nəşrlərinin səhifələrindən düşmür. Onun qüsursuz zövqü və gözəlliyi stilistlərin və dizaynerlərin dilinin əzbəridir. Həqiqətən, zaman keçdikcə bu xanımın məlahəti əsla azalmır. Mehriban xanımı çox vaxt qızları ilə dəyişik salırlar. Məsələn, Ağ evdə Əliyevlər ilə ABŞ-ın sabiq vitse-prezidenti Dik Çeyninin ailəvi görüşü zamanı maraqlı bir hadisə olub: tədbirdə təhlükəsizliyi təmin edən ABŞ xüsusi xidmətlərinin agentləri Əliyevlər ailəsi ilə ilk görüş zamanı Azərbaycan ailəsinin nümayəndələrindən kimin ana və kimlərin onun qızları olmasını dərhal anlaya bilməyiblər. Təsadüfi deyil, dünya birliyi Mehriban Əliyevanı ən cazibədar birinci xanım hesab edir.

Bütün bunlara və bir sıra başqa səbəblərə görə Mehriban Əliyeva elə bir siyasətçidir ki, dünyanın hər yerində onun haqqında danışırlar və danışmaq istəyirlər. Heç şübhəsiz, Mehriban Əliyeva hazırda karyerasının zirvəsindədir. Lakin onun xarakterini, özünə inamını və son dərəcədə dözümlü olmasını nəzərə alaraq cəsarətlə deyə bilərik ki, kamilliyin son həddi yoxdur. Mehriban xanımın Azərbaycanda, Rusiyada və dünyanın digər ölkələrində inanılmaz dərəcədə populyarlığı əsil fenomendir. Onun Rus Pravoslav Kilsəsi isə onun gördüyü xeyirxah işləri ordenlə mükafatlandırıb.

## XİN: Elmar Məmmədyarov və Sergey Lavrov Xəzərin hüquqi statusu, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müzakirələr aparıblar

Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrov arasında fevralın 1-də telefon danışığı olub. AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev KİV-ə açıqlamasında telefon danışığı zamanı nazirlərin regional və beynəlxalq gündəliyə aid mövzular, o cümlədən Xəzər dənizinin hüquqi statusu, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar və ikitərəfli əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi apardıqlarını bildirib.

## DSX ilə AMADA arasında memorandum imzalanıb



Dövlət Sərhəd Xidməti ilə Azərbaycan Milli Antidopinq Agentliyi arasında (AMADA) əməkdaşlıq haqqında memorandum imzalanıb. AMADA-dan SİA-ya verilən məlumata görə, Dövlət Sərhəd Xidmətində Agentliyin heyəti ilə görüş keçirilib. Görüşdə ölkə ərazisinə dövlət sərhədindən dopinq vasitələrinin qanunsuz keçirilməsi və antidopinq qayda pozuntusu məsələləri müzakirə edilib, təmiz idmanın inkişafı üçün iki qurum arasında sıx əməkdaşlığın həyata keçiriləcəyi qeyd olunub.

Əməkdaşlıq çərçivəsində antidopinq qaydalarına əsasən, barəsində araşdırmalar aparılan idmançılar və idmançılara dəstək heyəti, onların ölkəyə giriş-çıxışı haqqında və digər məsələlərlə əlaqədar məlumat mübadiləsinin aparılması razılaşdırılıb.

## SOCAR: Şirkətdə 12 min 578 gənc çalışır

SOCAR-ın müxtəlif strukturlarında 12 min 578 gənc çalışır. AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR məlumat yayıb. Bildirilir ki, bu vaxtadək 293 gənc SOCAR-ın Xarici Təqaüd Proqramına cəlb edilib. Onlardan 211 nəfəri SOCAR-da işlə təmin olunub. İndiyədək 1988 tələbə isə SOCAR təqaüdçüsü olub. Onlardan 209 nəfəri şirkətdə işlə təmin edilib. “Hazırda SOCAR-ın Bakı Ali Neft Məktəbində 577 nəfər bakalavr, 17 nəfər isə magistr təhsili alır. SOCAR-ın Təlim Mərkəzlərində 95 min 489 nəfər müxtəlif peşələrə yiyələnib. SOCAR 100 nəfər internat məzunu gəncə təhsil və iş verib.

# 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təntənəli mərasim keçirilib












Fevralın 2-də Azərbaycan Gəncləri Günü münasibətilə "Buta Palas"da təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 2 fevral tarixli Sərəncamı ilə bir qrup gəncə Prezident mükafatları təqdim olunub. AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları və gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər. Gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətindən danışıb. Bildirib ki, 21 ildir gənclərimiz ulu öndər Heydər Əliyevin təsis etdiyi Azərbaycan Gəncləri Gününü təntənəli şəkildə qeyd edirlər. Bu dövr yaddaşlarda Azərbaycan dövləti tərəfindən gənclərə göstərilən yüksək diqqət və qayğı illəri kimi qalıb. Ötən ilin ölkəmizin, o cümlədən gənclərimizin həyatında uğurlu il olduğunu vurğulayan nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan gəncləri 2017-2021-ci illər"də Dövlət Proqramının təsdiq olunması barədə Sərəncamın imzalanmasını xüsusi qeyd edib. Bildirib ki, bu sənəd Azərbaycan Prezidenti tərəfindən gənclərlə bağlı təsdiq edilən üçüncü Dövlət Proqramıdır. Gənclərin bütün sahələrdə maraqlarını nəzərə alan bu proqram müasir dövrün çağırışlarına tam cavab verir. Dünyanın heç bir ölkəsində gənclərlə bağlı ardıcıl olaraq bu qədər proqram qəbul edilməyib.

Nazir paytaxt Bakı ilə yanaşı, regionlarda da gənclərin fəallığının, məşğulluğunun təmin edilməsinin diqqət mərkəzində saxlanıldığını vurğulayaraq, bölgələrdə Gənclər evlərinin inşasının onların məşğulluğu işinə, eləcə də bilik və bacarıqlarının artırılmasına mühüm töhfə verdiyini bildirib. Qeyd edib ki, bu gün Azərbaycan gəncləri vətənpərvər, yüksək intellektli, milli mənəvi dəyərlərinə, tarixi köklərinə, dövlətə və Vətənə sadiq olmaqla yanaşı, ictimai-siyasi məsələlərlə bağlı əsl vətəndaşlıq mövqeyindən çıxış edərək yüksək fəallıq və təşəbbüskarlıq göstərirlər.

Azad Rəhimov gənclərimizin inkişafında, onların fəallıqlarının artırılmasında, istedadlarının üzə çıxarılmasında Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi vurğulayıb. Bildirib ki, müasir dövrdə Azərbaycan iqtisadiyyatının əsasında yaradıcılıq, innovasiyalar, bilik və bacarıqlar, eləcə də yüksək texnologiyalardan peşəkarlıqla istifadə imkanları dayanır. Məhz buna görə də yaradıcı və istedadlı gənclərin üzə çıxarılmasına, onlara dövlət dəstəyinin göstərilməsinə xüsusi diqqət yetirilir. Ölkəmizdə gənclərin məşğulluğunun təmin edilməsi, onların sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətində ilk dəfə olaraq "Made in Azərbaycan-2017" biznes ideya müsabiqəsi, "Gənc investor-2017" birja ticarəti üzrə simulyasiya yarışı keçirilib.

Son illər Azərbaycan gənclərinin təşkilatlanması, onların beynəlxalq əlaqələrinin inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdıran Azad Rəhimov ötən il 160-dan çox ölkədən nümayəndələrin iştirakı ilə Dünya Skaut Təşkilatının 41-ci konfransının Azərbaycanda təşkilinin önəmini qeyd edib.

Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev çıxış edərək Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurlarından danışıb. Azərbaycan Gəncləri Gününün ümummilli lider Heydər Əliyevin ölkə gəncliyinə töhfəsi olduğunu vurğulayan Yusuf Məmmədəliyev deyib ki, hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam və inkişaf etdirir.

Azərbaycan gənclərinin yüksək intellektli və vətənpərvər olduqlarını, ölkəmizi uğurla təbliğ etdiklərini diqqətə çatdıran Prezident Administrasiyasının şöbə müdiri qlobal səviyyədə rəqabətədavamlı gənclərimizin sayının ildən-ilə artdığını məmnunluqla vurğulayıb. Qeyd edib ki, gənclərin potensialının artırılması, onların inkişafı prosesində motivasiya çox önəmlidir. Bu gün müxtəlif sahələrdə ən istedadlı gənclərin təltif olunması onların uğurlarını cəmiyyətə tanıtmaqla yanaşı, həmin gənclərin daha da həvəsləndirilməsinə mühüm töhfə verəcək. Gənclərimiz bilməlidirlər ki, onların bilik və bacarıqları, fəaliyyətləri diqqətdən kənarda qalmır və yüksək qiymətləndirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva gənclərimizin qayğısına qalır, onların fəaliyyətini yaxından izləyirlər.

Yusuf Məmmədəliyev bildirib ki, ölkə rəhbərliyinin həyata keçirdiyi "qara qızılın insan kapitalına çevrilməsi" strategiyasına əsaslanan gənclər siyasəti nəticəsində gənclərin elmi, mədəni, ictimai sahələrdə fəallığı təşviq edilir. Buna görə də gənclərimiz ölkəmizin inkişafı üçün bütün sahələrdə daha da fəal olmalıdırlar. Bu ilin ölkəmiz üçün əhəmiyyətli hadisələrlə zəngin olacağını vurğulayan Yusuf Məmmədəliyev bu baxımdan növbəti prezident seçkilərinin önəmini xüsusi qeyd edib. Əminliklə bildirilib ki, Azərbaycanın gələcəyini, uğurlu inkişafını təmin edəcək bu prosesdə gənclər daha da fəal olacaq, dövlətimizin onlara göstərdiyi etimadı doğruldacaqlar.

Sonra Prezident İlham Əliyevin Sərəncamına əsasən, mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən Reyhan Camalovaya, Gülnar Əlfidatlıya, Xaqani Fərəcova, Ağarəhim Quliyevə, Zümrüd Səfərovaya və Aysun Zeynalovaya 2018-ci il Gənclər üçün Prezident mükafatları təqdim olunub. Gənclər və idman naziri Azad Rəhimov gənclər paytaxtının rəmzi açarını Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarova təqdim edib. Tədbir bədii hissə ilə davam edib.

# Oqtay Əsədov: TürkPA dialoq üçün mühüm platformadır





Fevralın 2-də Milli Məclisin sədri Oqtay Əsədov və ölkəmizdə səfərdə olan Qazaxıstan Parlament Məclisinin sədri Nurlan Niqmatulin Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA) Katibliyinin Bakıda yerləşən inzibati binasında olublar. AZƏRTAC xəbər verir ki, TürkPA-nın mənzil-qərargahının qarşısında parlament sədrlərini qurumun baş katibi Altınbek Mamayusupov, baş katibin müavinləri Fuad Ələkbərov, Nauruz Aydarov və Əli Yıldız qarşılayıblar.

Qonaqlar foyedə TürkPA-nın fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olublar. Sonra onlar burada yerləşən kitabxanadakı eksponatlarla tanış olub, kitabxananın işi ilə maraqlanıblar. TürkPA-nın baş katibi Altınbek Mamayusupovla görüş zamanı spikerlər təşkilatın fəaliyyəti barədə fikirlərini bildirib, Katibliyin əməkdaşlarına gələcək işlərində uğurlar arzulayıblar.

Milli Məclisin sədri deyib ki, TürkPA türkdilli xalqları düşündürən məsələlər ətrafında fikir mübadiləsi, dialoq aparmaq baxımından mühüm platformadır. Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulin Azərbaycanın təşkilatdakı fəaliyyətini, quruma verdiyi töhfələri yüksək qiymətləndirib, TürkPA-nın fəaliyyətinin türk xalqlarının ümumi məqsədlərinə xidmət etdiyini söyləyib.

Görüşdən sonra TürkPA-nın inzibati binasının həyətində parlament sədrləri dostluq və qardaşlıq rəmzi olan həmişəyaşıl ağaclar əkiblər.

Tədbirlərdə Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Qazaxıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Adil Əliyev, qazaxıstanlı deputatlar və digər rəsmi şəxslər iştirak ediblər.

# İrakli Lekvinadze: "Gürcüstanda yaşayan azərbaycanlılar xarici ölkələrlə sərbəst ticarət əlaqələri qura bilirlər"



Gürcüstan hökuməti bütün ölkələrdən gələn iş adamları üçün normal şərait yaradıb, Avropa İttifaqı, MDB və Asiya ölkələri ilə sıx ticarət və biznes əlaqələri qurulub. Bu ölkələr sırasında Azərbaycanın xüsusi yeri var. Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın biznes ombudsmanı İrakli Lekvinadze söyləyib. O deyib ki, bu gün Gürcüstan vətəndaşı olan azərbaycanlıların da çoxunun biznesi var. Onların bir çoxu artıq sərbəst şəkildə istədikləri ölkələrin iş adamları ilə ticarət əlaqələri qurublar. Bundan başqa, Azərbaycan Respublikasının vətəndaşları da sərbəst şəkildə Gürcüstanda biznes strukturları yaradıblar. "Bu günlərdə Azərbaycandan gəlmiş iş adamları ilə görüşüm oldu. Onlar Gürcüstandakı biznes mühiti, xüsusən kənd təsərrüfatı sahələrinin inkişaf perspektivləri ilə maraqlanırdılar. Biz lazım olan məlumatları verdik və ümid edirik ki, yaxın vaxtlarda onlar ölkəmizdə fəaliyyətə başlayacaqlar".

Ombudsman yerli və xarici iş adamlarının bəzən müəyyən problemlərlə üzləşdiklərini də deyib. Bildirib ki, istər yerli, istərsə də xarici iş adamları bəzən müvafiq sənədlərin hazırlanmasında, biznes layihələrin təqdimatında və s. məsələlərdə müəyyən çətinliklərlə üzləşirlər. Onların müraciətləri dərhal araşdırılır və həmin məsələlər tez bir zamanda öz həllini tapır.

## Azərbaycan məhsulları "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisində nümayiş olunacaq



Fevralın 5-dən 9-dək Rusiya Federasiyasının paytaxtı Moskvada "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisi keçiriləcək. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hər il təqribən 60 min ziyarətçinin qatıldığı sərgidə bu il 65 ölkədən 2000-dən çox şirkətin məhsullarının nümayiş olunacağı gözlənilir. Sərgidə Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid ölkə stendi ilə təmsil olunacaq. İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə sərginin Azərbaycana aid pavilyonunda meyvə şirələri, müxtəlif növ şərablar və təbii mineral sular, fındıq, qənnadı məmulatları, çay, quru meyvə və s. məhsullar nümayiş etdiriləcək. Ümumilikdə, Azərbaycan "Prodexpo" Sərgisində 25-dən çox şirkətlə təmsil olunacaq. Bundan başqa, sərgidə Azərbaycanın tarixi və mədəni dəyərlərinin təbliğinə dair videoçarx nümayiş olunacaq.

## Əbülfəs Qarayev: "Hava limanlarında "ASAN Viza"nın tətbiqi prosesin şəffaf həyata keçirilməsinə yönəlib"



Prezident İlham Əliyevin Azərbaycanın beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında verdiyi fərman ölkədə turizmin inkişafına yönəlmiş addımdır. Bunu mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib. Onun sözlərinə görə, Azərbaycanda "ASAN Viza" sisteminin tətbiqi ilə əlaqədar son zamanlar ölkəmizə gələn qonaqların sayı xeyli artıb:

"Vizanın 3 saat müddətində verilməsi, demək olar, bütün maneələri aradan qaldırdı. Hesab edirik ki, Prezidentin hava limanlarında, sərhədlərdə məhz "ASAN Viza" sisteminin tətbiqi ilə bağlı verdiyi qərar bu prosesin burada da daha mütəşəkkil, şəffaf həyata keçirilməsinə, qonaqların gəlişinin asanlaşdırılmasına yönəlib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimovla tədris ocaqlarının məzunlarının da bu işə cəlb olunması məsələsi gündəlikdədir".

## Ölkə əhalisi tibbi müayinələrə cəlb ediləcək



Səhiyyə nazirinin müavini Nigar Əliyeva "Azərbaycan Respublikası əhalisinin tibbi müayinələrdən keçirilməsi barədə" 30.01.2018-ci il tarixli sərəncam imzalayıb. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin tapşırığını rəhbər tutaraq 2018-ci ilin fevral ayının 12-dən may ayının 12-dək ölkə əhalisinin tibbi müayinələrdən keçirilməsi təşkil ediləcək. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrinin rəhbərlərinə əhalinin tibbi müayinələrdən keçirilməsinin icrasını şəxsi nəzarətə götürmək tapşırılır.

Sərəncamda xəstəlik aşkar edilmiş şəxslərin yerlərdə, zərurət yarandığı hallarda isə Bakı şəhərində və bölgələrdə fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisələrində əlavə müayinə və müalicəyə cəlb olunması, digər sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Respublika əhəmiyyətli tibb müəssisələrinin rəhbərlərinə mütəxəssislərdən ibarət qrupların müntəzəm olaraq regionlara ezam olunması tapşırılır.

## Erməni əsgər qəza törətdi

Ermənistanda hərbi qulluqçu qəza törədib. SİA-nın erməni mətbuatına istinadən verdiyi məlumata görə, dünən saat 13:28 radələrində Tavuş (Tavus-red.) vilayətinin Karmiraxpyur kəndinin yaxınlığında yol nəqliyyat hadisəsi baş verib.

Dövlət nömrə nişanı olmayan VAZ-2121 markalı avtomobil yolun hərəkət hissəsindən çıxaraq, yaxınlıqdakı dərəyə 20 metr yuvarlanıb. Xilasetmə heyəti gələnədək yerli qüvvələrin köməyi ilə sürücü Q.Q avtomobildən çıxarılaraq, Berd şəhər hərbi hospitalına təxliyə edilib. Onun vəziyyəti kafi qiymətləndirilib. Ermənistan müdafiə nazirliyi yaralanan hərbi qulluqçu haqqında məlumat verməyib.



# “Hüseyn Cavid-135” şeir müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 135 illik yubileyi münasibətilə “Kaspi” təhsil şirkəti, “Kaspi”qəzeti, artkaspi.az mədəniyyət və ədəbiyyat portalının birgə təşkil etdikləri “Hüseyn Cavid - 135” şeir müsabiqəsinin mükafatlandırma və müsabiqəyə göndərilən poetik nümunələrdən ibarət antologiyanın təqdimat mərasimi keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə “Kaspi” qəzetinin təsisçisi Sona Vəliyeva, Mətbuat Şurasının sədri Əflatun Amaşov media kapitanları, şairlər və digərləri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Mətbuat Şurasnın sədri Əflatun Amaşov Azərbaycanın böyük şairi Hüseyn Cavid haqqında məlumat verib. O bildirib ki, Cavid Azərbaycan ədəbiyyatının mühüm simalarından biridir.***









Görkəmli şairin Naxçıvanın Şahtaxtı kəndində anadan olduğunu deyən Ə. Amaşov məlumat verib ki, böyük dramaturq bir müddət Təbrizdə mədrəsədə, daha sonra isə İstanbulda təhsil alıb: “ Təhsil aldıqdan sonra böyük şair Azərbaycanda müəllimlik fəaliyyəti ilə məşğul olub. Lakin o dövrün amansız sürgün həyatı ondan da yan keçməyib. Böyük şairimiz Sibirə sürgün olunub. Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində görkəmli şairin məzarı tapılaraq Azərbaycana gətirilib”.

Ə. Amaşov söyləyib ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatında əbədi iz qoyan sənətkardır: “Hüseyn Cavid elə sənətkardır ki, onun əsərləri əbədi olaraq tariximizə həkk olunmalıdır”. Daha sonra tədbirdə Hüseyn Cavidin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirin davamında çıxış edən “Kaspi” qəzetinin təsisçisi Sona Vəliyeva söyləyib ki, Hüseyn Cavid çox xoşbəxt sənətkarlardandır. Onun sözlərinə görə, sənətkarına böyük qiymət verə biləcək xalqa sahib olmaq xoşbəxtlikdir: “Şəxsiyyətləri mühit yetişdirir. Bu, birmənalıdır. Cavidin taleyi elə yazılmışdır ki, onun atası mütləq Şahtaxtdan köçməli idi. Böyük dramaturq atasının qoyduğu molla məktəbindən qaçmalı, Sidqinin məktəbinə gəlib dünyəvi elmlərlə məşğul olmalı idi. O, öz yaradıcılığını iki böyük məfkurənin qovuşuğunun bünövrəsində qurmalı idi. Çünki dahi şairimizin taleyi əvvəldən görəvli idi. Hüseyn Cavidin taleyində türk dünyasının ən böyük filosoflarından, insanlarından dərs almaq yazılmışdı. O, məfkurənin nədən başlandığını və digər prinsipləri öyrənməli idi”. S. Vəliyeva bildirib ki, Hüseyn Cavidin istər bədii, istər publisistik, istərsə də nəsrlə yazdığı əsərlərdə məfkurə hakimliyi var: “O nə yazıbsa, orada iki xətt var. Biri tanrıya, biri də milli məfkurəyə bağlılıq”. “Kaspi” qəzetinin təsisçisi qeyd edib ki, Cavidin əsərlərində Allaha müraciətlər insanların diqqətini cəlb edir: “Bu çox vacibdir. Hüseyn Cavid nə yazıbsa o öz ideyalarına sadiq qalıb. O nə yazdısa, xalq onunla qürur duydu. Ümumiyyətlə, Caviddən danışanda onun acı taleyinə yanmamaq mümkün deyil. Böyük dramaturq Allahına, tanrısına bağlı idi. Onun böyüklüyü də onda idi. O sonuna qədər öz əqidəsinə, məsləyinə, arxalandığı məfkurəyə sadiq qaldı. Bu gün biz Cavidə qayıtmaqla özümüzə qayıdırıq”. Ümummilli Liderin görkəmli şairin məzarının Azərbaycana gətirilməsi istiqamətində fəaliyyətindən söz açan S. Vəliyeva qeyd edib ki, Ulu Öndər ailəni böyük məqbərə altına topladı: “Ümummilli Lider Hüseyn Cavid ideologiyasını dəstəkləməklə bu ailədən olduğunu sübut etdi. Bu, böyük şairə verilən böyük qiymət, tarixi xidmətdir”. Müsabiqə haqqında məlumat verən “Kaspi” qəzetinin təsisçisi vurğulayıb ki, müsabiqəyə 108-ə qədər müəllif şeir göndərib: “Qaliblərin müəyyənləşdirilməsi üçün çox görkəmli söz adamlarından ibarət münsiflər heyəti təşkil olunub.



Bildiyiniz kimi Cavidin əsas pinsipi ədalət idi ki, qaliblərin seçilməsində bu prinsipə əməl olunub. Qaliblər üçün diplom və pul mükafatı ayrılıb. Mən bütün qalibləri təbrik edirəm. Bu səpkidə tədbirlərimiz davamlı olacaq”. Müsabiqənin münsiflər heyətinin üzvü, şair Sabir Rüstəmxanlı bildirib ki, Cavidin Azərbaycana qayıdışı, tarixi bayram idi. Tədbirdə çıxış edən digər natiqlər bu cür müsabiqələrin keçirilməsinin mühüm və əhəmiyyətli olduğunu dilə gətiriblər. Sonda qaliblər mükafatlandırılıb.

# YAP Sabunçu rayon təşkilatında Gənclər Günü qeyd edildi

Dünən Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatında 2 Fevral Gənclər Günü ilə bağlı dəyirmi masa keçirilib. Dəyirmi masanı giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva tədbir iştirakçılarını salamlayaraq, bildirib ki, Yeni Azərbaycan Partiyası günü-gündən gəncləşir və təşkilatın hər bir gənc üzvü bu təşkilata üzv olmaqla qürur duyur. “Bu gün mən tədbirimizdə iştirak edən gənclərimizi gördükcə, onların hər birində çox gözəl əhval-ruhiyyənin olduğunu müşahidə edirəm”-deyə qeyd edən rayon təşkilatının sədri bildirib ki, buna əsas səbəb dövlətimizin, dövlət rəhbərliyimizin gənclərə göstərdikləri diqqət və qayğı faktorudur: “Bu gün Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi uğurlu gənclər siyasətinin nəticəsidir ki, hər bir gənc bu siyasətin nəticəsində öz xoşbəxt gələcəyini qurur, təhsil alır, işləyir və cəmiyyətə töhfələrini verir. O cümlədən, Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban xanım Əliyevanın da bu istiqamətdəki fəaliyyəti hər bir gəncimizdə böyük ruh yüksəkliyi yaratmaqdadır. Həmçinin, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın da gənclər siyasətində göstərdiyi fəaliyyəti bizlərdə qürur hissi doğurur. Bu gün biz əminliklə deyə bilərik ki, gənclərimiz daim Onların nəzərləri altındadırlar”.



Mehriban Abasquliyeva gənclərimizin sosial şəbəkələrdə də ölkəmizin və dövlətçilik maraqlarımızın qorunması, təbliği istiqamətində fəal olduqlarını və bundan sonra daha da fəal olmaları vacibliyini deyərək, vurğulayıb ki, bəzilərindən fərqli olaraq, YAP-ın gənc fəalları sosial şəbəkələrə yalnız istirahət və əyləncə məqsədi ilə deyil, o cümlədən, Vətənimizin dünyaya inkişaf və tərəqqi reallıqlarını çatdırmaqla, Azərbaycanı istəməyən daxili və xarici qüvvələrin qarşısına çıxaraq, onlara layiqli cavablar verməklə, daxil olurlar və bunun uğurlu nəticələri də göz önündədir.

YAP Sabunçu rayon təşkilatının sədri M.Abasquliyeva partiyanın rayon təşkilatında təmsil edilən gənclərin də bir çox uğurlara imza atdıqlarını bildirərək qeyd edib ki, bu, çox önəmli bir haldır. “Sizin hər birinizin uğurunuz, bizim uğurumuzdur”- deyə bildirən Mehriban Abasquliyeva partiyaya üzv olmaq üçün müraciət edən gənclərə partiya biletlərini və hədiyyələri təqdim etdi və xatirə şəkilləri çəkildi.

Mehriban Abasquliyeva gənclərə bir sıra tövsiyə və tapşırıqların verərək, onlara gələcək fəaliyyətlərində uğurlar dilədi.

**Rövşən NURƏDDİNOĞLU**

# BSU-da 2 Fevral Gənclər Günü qeyd olunub

## *Nurlana Əliyeva: “Hər bir gənc bu gün Azərbaycan dövlətinin vətəndaşı olması ilə qürur duyur”*



***Bakı Slavyan Universitetində 2 Fevral Gənclər Gününə həsr olunmuş elmi konfrans keçirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.***

Tədbiri BSU-nun rektoru, professor Nurlana Əliyeva açaraq, 2 Fevral Gənclər Gününün bayram kimi qeyd edilməsinin artıq ölkəmizdə ənənəvi hal aldığını bildirib. Rektor bildirib ki, Ümummilli Lderi Heydər Əliyevin Azərbaycan dövlətçiliyi sahəsində müəyyən etdiyi prinsiplər Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, həyati reallığa çevrilmişdir. N.Əliyeva ölkə gəncliyinin öz fəaliyyəti ilə bu etimadı hər an doğrultduğunu və Prezidenti İlham Əliyevi daim dəstəklədiyini, Onun rəhbərliyi altında dövlətçiliyimizin keşiyində mətanət və ləyaqətlə dayandığını vurğulayıb. Rektor daha sonra son illərdə Azərbaycanın keçdiyi böyük inkişaf yolundan, respublikamızın regionun lider dövlətə çevrilməsindən söz açıb.

Daha sonra Beynəlxalq Münasibətlər kafedrasının müdiri professor Habil Məmmədov “XXI əsrin çağırışları və Azərbaycan gəncliyi”, Magistratura şöbəsinin II kurs tələbəsi Natiq Nəsirov “Azərbaycan Dövlətinin Gənclər Siyasəti”, BSU Tələbə Gənclər Təşkilatı Emin Şeydayev “Gənclər Bizim Gələcəyimizdir”, BSU Tələbə-Gənclər Təşkilatının sədr müavini Vaqif Yəhyalı “BSU-nun gənclər siyasətinə verdiyi töhfələr” mövzusunda çıxış etmişlər.

Daha sonra Belarusda keçirilən “53-cü Beynəlxalq Ulduz yürüşü”ndə iştirak etmiş Bakı Slavyan Universitetinin BM və regionşünaslıq fakültəsinin tələbələrinin hesabatı dinlənilib.

**ZÜMRÜD**



## Hikmət Hacıyev: “Minsk qrupunun həmsədrləri Azərbaycana fevralın 6-da gələcəklər”



ATƏT-in Minsk qrupunun həmsədrlərinin fevralın 6-da Azərbaycana gəlmələri, fevralın 7-də isə müvafiq rəsmi görüşlər keçirmələri gözlənilir. AZƏRTAC xəbər verir ki, bu barədə KİV-ə açıqlamasında Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. XİN-in sözçüsü deyib ki, səfərin məqsədi Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə hazırda aparılan intensiv və məntiqi əsaslı danışıqlara dair müzakirələrin davam etdirilməsidir.

## Zakir Həsənov Anji Kaspşik ilə görüşüb



Fevralın 2-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# Oktay Səmədov: “Bilik Fondu fəaliyyətini daha da təkmilləşdirmək əzmindədir”

***Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu Prezident İlham Əliyevin 2014-cü il 7 may tarixli Fərmanı ilə yaradılıb. Ötən illər ərzində fond əhəmiyyətli uğurlara imza atıb, onun həyata keçirdiyi ölkədaxili və beynəlxalq layihələr böyük maraqla qarşılanıb.***

Bilik Fondunun icraçı direktoru Oktay Səmədovun AZƏRTAC-a məxsusi müsahibəsində bu qurumun fəaliyyətindən, gördüyü işlərdən bəhs olunur. Həmin müsahibəni təqdim edirik:

***- Oktay müəllim, ötən ilin yekunlarına nəzər salanda ölkədə qazanılan nailiyyətləri necə dəyərləndirərdiniz? Yola saldığımız 2017-ci il yaddaşınızda hansı uğurlarla qaldı?***

-2017-ci il Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında özünəməxsusluğu və rəngarəngliyi ilə yadda qaldı. Uğurla həyata keçirilən düşünülmüş iqtisadi siyasət, qeyri-neft sektorunun inkişafı istiqamətində atılan ciddi addımlar, ölkə daxilində ictimai-siyasi sabitliyin qorunması və digər amillər iqtisadiyyatımızı müasir dünyada mövcud olan və hər bir dövlət üçün təhlükə yaradan qlobal risklərdən qorumağa imkan verdi.

İqtisadi sahədə əldə olunan uğurların təməlində Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət nəticəsində ölkədə ötən ilin əvvəlindən həyata keçirilməyə başlayan iqtisadi islahatlar dayanır. 2017-ci ilin ilk günlərindən iqtisadiyyatın əsas 11 sektorunu əhatə edən Strateji Yol xəritələrinin həyata keçirilməsinə başlanılıb, ölkəmiz dinamik və davamlı inkişaf yoluna qədəm qoyub.

“Cənub Qaz Dəhlizi”nin tərkib hissələri - TANAP və TAP qaz boru kəmərlərinin inşası layihəsinin uğurla davam etdirilməsi, “Azəri-Çıraq-Günəşli” neft yataqlar blokunun işlənilməsinin 2050-ci ilədək uzadılması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi, iki milyard ton neft hasilatına nail olunması və müxtəlif bölgələrdə iri sənaye müəssisələrinin fəaliyyətə başlaması ölkəmizin iqtisadi həyatında yaşanmış ən əlamətdar hadisələrdir.

Azərbaycanın Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda reytinqdə iki pillə irəliləyərək 35-ci yerdə, “Dünya Bankı” tərəfindən hazırlanmış hesabatda 190 ölkə arasında 57-ci mövqedə qərarlaşması, həmçinin Avropa və Mərkəzi Asiya regionunda ən islahatçı üç ölkədən biri kimi qəbul olunması ölkəmizin iqtisadi uğurlarının dünya miqyasında tanınmasının parlaq göstəricisidir.



Bu gün Azərbaycanın beynəlxalq nüfuzu kifayət qədər yüksəkdir. Ölkəmizin müasir dünyanın aktual problemlərinin müzakirə olunduğu məkana çevrilməsi, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın dünya ölkələri sırasında geosiyasi əhəmiyyətinin durmadan artdığını göstərir. Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişi üzrə danışıqlara başlanılması, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, dövlətimizin başçısının BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında dərin məzmunlu nitqi ötən ilin yaddaqalan hadisələrindəndir.

Ötən ilin fevralında Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi dövlətçiliyin möhkəmlənməsi, idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addım oldu.

Prezident İlham Əliyevin erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Sərəncamına əsasən kəndə qayıdan əhali üçün yaşayış evlərinin, məktəb binasının, Şuşa məscidinə bənzər dini məbədin inşası, müvafiq infrastrukturun yaradılması ötən ilin doğma torpaqlarımıza “Böyük qayıdış”ın başlanğıcından xəbər verən mühüm tarixi hadisəsinə çevrildi.

“İslam Həmrəyliyi İli”ndə xalqımızın milli mənəvi və dini dəyərlərinə yüksək qiymət verdiyi, ölkəmizin dini tolerantlığın nümunəsi olduğu bir daha bütün bəşər əhlinə bəlli oldu. Dünyanın 54 ölkəsini təmsil edən 3 mindən çox idmançını bir araya gətirmiş, 1 milyarddan artıq tamaşaçı tərəfindən izlənilmiş IV İslam Həmrəyliyi Oyunları istər bütün regionda, istərsə də beynəlxalq miqyasda Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi.

Azərbaycanın ötən ildə əldə etdiyi nailiyyətlər 2018-ci ilin ölkəmiz üçün daha da uğurlu olacağını deməyə əsas verir.

***-”İslam Həmrəyliyi İli”ndə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun fəaliyyəti nədən ibarət oldu?***

-”İslam Həmrəyliyi İli”ndə Bilik Fondu ölkə əhalisinin elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərinin artırılması, milli mənəvi dəyərlərin təbliği, dövlətin daxili və xarici siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyət göstərib. Fondun 76 şəhər və rayon nümayəndəsi yerli əhalinin maarifləndirilməsi ilə bağlı bir sıra tədbirlərin təşəbbüskarları və təşkilatçıları olub, mühazirə və təlimlərin müasir tələblərə uyğun keçirilməsini təmin ediblər. Fondun dəstəyi ilə Qax, Oğuz, Şəmkir, İsmayıllı rayonlarında və Bakı şəhərinin Nardaran qəsəbəsində fəaliyyət göstərən bilik evlərində aktual mövzularda mühazirə, təlim, müzakirə və təqdimatlar, tanınmış elm adamları, mədəniyyət xadimləri ilə görüşlər, “dəyirmi masa”lar, ödənişsiz təlim kursları təşkil edilib, dərnəklər yaradılıb. 2017-ci ildə Tərtər, Astara, Ağdaş və Ağstafa rayonlarında bilik evləri fəaliyyətə başlayıb. Hazırda bilik evlərində “Kompüter texnologiyaları və karguzarlıq işi”, “İngilis dili”, “Rus dili”, “Ədəbi yaradıcılıq”, “Toxuculuq”, “Rəssamlıq” və “Bələdçilik” üzrə təlim kursları və dərnəklər fəaliyyət göstərir.

Bilik Fondu “İslam Həmrəyliyi İli” ilə əlaqədar respublika və beynəlxalq səviyyəli 9 elmi-praktik konfransın təşkilatçısı olub, ölkənin müxtəlif bölgələrində və xaricdə 200-dək mühazirə təşkil edib.

15 sentyabr - Bilik günündə ölkənin bütün bölgələri əhatə olunmaqla 61 orta, 33 orta ixtisas, 15 ali təhsil müəssisəsində, Heydər Əliyev mərkəzləri, mədəniyyət və gənclər evlərində alim, tədqiqatçı və mütəxəssislərin, Milli Məclisin deputatlarının iştirakı ilə 120 mühazirə keçirilib. Tədbirlərdən 14.000-dən çox dinləyici faydalanıb.

Bir çox təhsil müəssisələrində IV İslam Həmrəyliyi Oyunları ilə bağlı təqdimatlar keçirilib, könüllülər hazırlığı məqsədilə ərəb dili üzrə təlimlər təşkil edilib. Fondun Rus Pravoslav kilsəsində Azərbaycan dili üzrə ödənişsiz təlim kursları da “İslam Həmrəyliyi İli”ndə ölkəmizdə tolerantlıq ənənələrinin möhkəmlənməsi və multikultural mühitin zənginləşməsinə xidmət göstərən addım kimi dəyərləndirilə bilər. Hazırda Bakı şəhərindəki kilsələrdə, “Sodrujestvo” İctimai Birliyində, Qəbələ rayonunun Nic qəsəbəsindəki “Cotari” Alban-Udi kilsəsində etnik qrupların 100-dən çox nümayəndəsinə dövlət dili tədris olunur.

***-Bu gün ictimaiyyətin məlumatlandırılması üzrə məqsədyönlü proses kimi anlaşılan maarifləndirmə Bilik Fondunun başlıca missiyasıdır. Əhalinin hansı sahələr üzrə maarifləndirilməsinə xüsusi diqqət yetirilib və bu növ fəaliyyətin statistik təsviri barədə nə deyərdiniz?***

-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında 2016-cı il 16 mart tarixli Sərəncamının şərhi, bu sahədə görülmüş işlərin təbliği ilə əlaqədar əhali arasında maarifləndirmə işinin gücləndirilməsi məqsədilə ölkənin müxtəlif bölgələrində mühazirələr təşkil edilib. Milli Məclisin deputatları və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) alimləri şəhər və rayonların Heydər Əliyev mərkəzlərində, kənd təsərrüfatı və sənaye müəssisələrində müvafiq mövzularda mühazirələrlə çıxış ediblər.

Dövlətin daxili və xarici siyasətinin mahiyyətinin əhaliyə çatdırılması, ideoloji işin təkmilləşdirilməsinə dəstək verilməsi məqsədilə Bilik Fondu ötən ilin təkcə iyun ayında respublikanın 23 şəhər və rayonu əhatə olunmaqla 22 Heydər Əliyev Mərkəzində, 18 ali və orta təhsil müəssisəsində, 4 elm və mədəniyyət ocağında “Heydər Əliyev və Azərbaycanda dövlət quruculuğu” və “İlham Əliyev və dövlət siyasətinin prioritet istiqamətləri” mövzularında silsilə mühazirələr təşkil edib. Tədbirlərin nəticəsi olaraq, “Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun lektoriyası” silsiləsindən ilk mühazirələr toplusu nəşr edilib və növbəti buraxılış çapa hazırlanıb.

2017-ci ildə Bilik Fondu tərəfindən respublikanın müxtəlif bölgələrində ümumilikdə 417 mühazirə və 46 təlim təşkil edilib. Geniş coğrafi ərazidə əhalinin müxtəlif təbəqələrini və sosial qrupları əhatə edən mühazirələr şəhər və rayonlarda fəaliyyət göstərən dövlət idarə və təşkilatlarında, elm və mədəniyyət, orta və ali təhsil müəssisələrində dinlənilib.

AMEA-nın institutları və müvafiq qurumlarının əməkdaşları tərəfindən 100, ali məktəblərin müəllimləri tərəfindən 72, Milli Məclisin deputatları tərəfindən 27, digər təşkilat və müəssisələrdə çalışan mütəxəssislər tərəfindən 188, xarici ölkə alimləri və tədqiqatçıları tərəfindən 30 mühazirə keçirilib.

“Dünya elmi Azərbaycanda” layihəsi çərçivəsində Portuqaliya, Litva, İndoneziya, Misir alimlərinin mühazirələrini yerli tədqiqatçılar və gənclər xüsusi maraqla qarşılayıblar. Rusiyalı tarixçi və siyasi analitik Oleq Kuznetsovun Şəmkir, Mingəçevir, Gəncə və Naftalan şəhərlərində mühazirələri, “XX əsrdə transmilli erməni terrorizmi. Tarixi-kriminoloji tədqiqat” kitabının, Xocalı soyqırımının Rusiya Dumasında tanınması məqsədilə hazırladığı petisiyanın təqdimatları təşkil olunub.

Fondun təşkil etdiyi mühazirələrə ümumilikdə 300-dən çox alim və tədqiqatçı, təhsil, mədəniyyət və səhiyyə işçisi, tanınmış ziyalılar cəlb olunublar.

***-Bilik Fondu yarandığı gündən maraqlı bir layihəyə - “Qardaşlaşmış məktəblər” layihəsinə imza atıb. Fondun bu layihəsi davamlıdırmı?***

-Prezident İlham Əliyevin yenіyetmə və gənclərin yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmasına xüsusi diqqət və qayğı ilə yanaşması ölkədə bir çox layihələrin gerçəkləşməsinə böyük təkan verir. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən “Ölkəmizi tanıyaq” layihəsi Bilik Fondunun maarifləndirici fəaliyyətinin daha geniş təşkilinə şərait yaradıb. Fondun “Qardaşlaşmış məktəblər” layihəsi çərçivəsində il ərzində respublikanın 11 və xarici ölkələrin 3 orta təhsil müəssisəsi arasında əlaqələr qurulub.

# Oktay Səmədov: “Bilik Fondu fəaliyyətini daha da təkmilləşdirmək əzmindədir”

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və “İslam Həmrəyliyi İli”nə həsr edilmiş “Bir günəşin zərrəsiyik” II Beynəlxalq Şagird Konfransı çərçivəsində 4 ölkənin 7 təhsil ocağı arasında “Qardaşlaşma sazişi” imzalanıb. Layihədə iştirak edən məktəblərin sayı 60-a çatıb. Hazırda orta-ixtisas və peşə təhsili müəssisələrində, eləcə də ali məktəblərdə təhsil alan gənclər arasında “bilik körpüsü”nün yaradılmasını nəzərdə tutan eyniadlı layihə üzərində işləyirik.

***-Gənclərin elmi biliklərinin artırılmasında mütaliənin rolu danılmazdır. Kitabın təbliği istiqamətində fondun gördüyü işlər barədə nə deyərdiniz?***

-Bilik Fondu uşaq, yeniyetmə və gənclərdə mütaliəyə “Kitab - bilik mənbəyidir” anlamına uyğun münasibətin formalaşmasını vacib hesab edir. İnformasiya əldə edilməsində yeni texnologiyalara meyillilik heç də intellektin çap məhsulu olan kitaba ənənəvi münasibəti dəyişməməlidir. Bilikli insan kapitalının formalaşdığı cəmiyyətdə elmi və bədii ədəbiyyatla ünsiyyət xüsusi əhəmiyyətə malikdir. Bilik Fondunun bütün proqram və layihələrində kitab həm maarifləndirmə vasitəsi, həm də birbaşa iştirakçıdır. Fond həyata keçirdiyi tədbirlər çərçivəsində minlərlə kitabı müəssisə və təşkilatlara hədiyyə edib, bilik yarışmaları və intellektual müsabiqə qaliblərini kitablarla mükafatlandırıb.

Bilik günü ərəfəsində 1000 nüsxədən çox kitab Cocuq Mərcanlı kənd məktəbinə hədiyyə edilib. Elmi və bədii ədəbiyyat nümunələrindən ibarət hədiyyə dəsti Tbilisidə fəaliyyət göstərən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinə təqdim edilib.

Fondun “İmzalı görüş” layihəsi çərçivəsində gənc oxucuların bir çox tanınmış yazıçılarla görüşləri təşkil olunub.

İlin sonunda bir sıra təhsil müəssisələrində yeniyetmə və gənclərin kitaba və mütaliəyə maraq dərəcəsinin, onlara oxu mədəniyyətinin aşılanması yollarının müəyyənləşdirilməsi məqsədilə sosioloji anket sorğusuna başlanılıb. Sorğuda 5.000-dək məktəbli və tələbənin iştirakı nəzərdə tutulub.

-Bilik Fondu maarifləndirici proqram və layihələrin icrasında hansı qurumlarla sıx əməkdaşlıq edir?

-Əhalinin tibbi maarifləndirilməsi və sağlam həyat tərzinin təbliği istiqamətində həyata keçirilən tədbirlər Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə birgə təşkil olunur. “Hüquqi maarifləndirmə” proqramının icrasında AMEA-nın hüquqşünas alimlərinin, Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsi üzvlərinin, Konstitusiya Məhkəməsi əməkdaşlarının köməyindən istifadə edirik. “Sabahın alimləri” VI Respublika müsabiqəsinin təşkilində Təhsil Nazirliyi, orta məktəb müəllimləri və təhsil işçiləri arasında “Ən yaxşı yazı” müsabiqəsinin keçirilməsində “Azərbaycan müəllimi” qəzeti ilə əməkdaşlıq etmişik.

Fondun “Ekran və efirdə ədəbi dil normaları” layihəsinin icrasında Milli Televiziya və Radio Şurası kömək göstərib, “Xəzər TV” MMC, “Lider TV” MMC, “ARB” Media Qrupunun “ARB 24” (Tovuz) və “Kəpəz TV” yayım şirkətlərində AMEA-nın Dilçilik İnstitutu, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin alim və müəllimlərinin, eləcə də praktik jurnalistlərin təlimləri üçün şərait yaradıb.

Bu günlərdə Bakı Dövlət Universiteti ilə əməkdaşlıq haqqında saziş imzaladıq. Bu nüfuzlu elm və təhsil ocağının 100 illiyi ərəfəsində birgə tədbirlər təşkil etmək niyyətindəyik.

***-Bilik Fondunun beynəlxalq əlaqələrinin möhkəmlənməsində nə kimi irəliləyişlər var?***

-Müxtəlif mövzularda beynəlxalq elmi konfransların, yerli alimlərin ölkə xaricində mühazirələrinin təşkili, xarici ölkələrdən alim və tədqiqatçıların lektoriyalara cəlb olunması, Azərbaycan tarixinin, elm və mədəniyyətinin xaricdə, dünya elminin Azərbaycanda təbliği istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Cənubi Koreya, Sudan, Misir Ərəb Respublikası, Ukrayna, Latviya, Hindistan və İndoneziyanın Azərbaycandakı səfirləri fondun qonağı olub, təmsil etdikləri ölkələrin tanınmış alim və tədqiqatçılarının fondun layihələrində iştirakı, elm və təhsil mərkəzləri ilə əlaqələrin qurulması məsələlərini müzakirə ediblər.

İordaniyanın Kral Akademiyasının direktoru Rim Masiri, Litva Universitetinin professoru Vidas Kavaliauskas, İraq Respublikasının uşaq yazarı Casim Muhammed Salih, Türkiyənin 29 Mayis Universitetinin professoru Tayyar Altıkulaç, Misir Milli Kitabxanası və Arxivlərinin müdiri Əhməd Seyyid Muhəmməd Şövki Bilik Fondunda kollektivlə görüşüb, əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Bilik Fonduna Rusiya Federasiyası Təhsil və Elm Nazirliyinin A.Puşkin adına Dövlət Rus Dili İnstitutunun “Puşkin İnstitutu” Tərəfdaşlıq Şəbəkəsinin həqiqi üzvlüyünü təsdiqləyən sertifikatı təqdim edilib.

***-Elmi bilikləri təbliğ edən Bilik Fondunun əsas hədəfi gənclərdir. Onların intellektual səviyyəsinin yüksəldilməsi, məşğulluğunun təmin edilməsinə dəstək göstərilməsi, asudə vaxtlarının səmərəli təşkili yönümündə hansı işlər görülür?***

-Bilik Fondu gənclərin elmi biliklərinin artırılması, vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyə olunması işinə xüsusi diqqətlə yanaşır. Mühazirə və təlimlər, film nümayişləri, kitab təqdimatları, ziyalılarla görüşlər keçirilən auditoriyalarda gənclərimiz böyük üstünlük təşkil edirlər. Bu gün Bilik Fondunda tələbə gəncləri bir araya gətirən “Tariximizi öyrənək və öyrədək” Gənclər Klubu, “Gənc jurnalistlər” və “Diplomatlar” klubları fəaliyyət göstərir, bilik evlərində yerli gənclər üçün müxtəlif ixtisas və peşələr üzrə təlim kursları, dərnəklər təşkil olunur, istedadlı və yaradıcı gənclərin üzə çıxarılması məqsədilə bilik müsabiqələri keçirilir, tələbələr fondda istehsalat təcrübəsinə göndərilirlər.

***-Yeni təqvim ilində Bilik Fondunun fəaliyyətində hansı yeniliklər gözlənilir?***

-Bilik Fondu əhalinin maarifləndirilməsi ilə bağlı qarşısına qoyulmuş vəzifələrin icrası istiqamətində fəaliyyətini daha da təkmilləşdirmək əzmindədir. Mühazirə və təlimlərin coğrafiyasının yerlərdən daxil olan müraciətlər və keçirilən sosioloji sorğular əsasında genişləndirilməsi, mövzu rəngarəngliyinin təmin edilməsi, dövlətin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədilə keçirilən maarifləndirici tədbirlərin keyfiyyətinin yüksəldilməsi, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi, Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar ölkənin bütün bölgələri əhatə olunmaqla silsilə mühazirələrin, “dəyirmi masa” və seminarların, kitab təqdimatları, sərgi, müsabiqə və bilik yarışmalarının təşkili, bilik evləri şəbəkəsinin genişləndirilməsi, Azərbaycan həqiqətlərini əks etdirən nəşrlərin, elmi-kütləvi ədəbiyyat nümunələrinin hazırlanması işinə, müvafiq mövzularda sənədli filmlərin və sosialyönümlü videoçarxların çəkilişinə yaxından dəstək göstərilməsi, maarifləndirici fəaliyyətin sosial sifariş əsasında daha da təkmilləşdirilməsi məqsədilə Sosioloji Sorğu Mərkəzinin yaradılması gündəmdə duran məsələlərdir.

Ölkə Prezidentinin əhalinin maarifləndirilməsi, müxtəlif elm sahələri üzrə biliklərinin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli mənəvi dəyərlərin təbliği, dövlətin daxili və xarici siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılması ilə bağlı verdiyi tapşırıqları layiqincə yerinə yetirmək Bilik Fondu əməkdaşlarının və fondun ətrafında toplaşan elm adamlarının, maarifçi ziyalıların həm vəzifə, həm də vətəndaşlıq borcudur.

## Əli Əlizadə Pakistan Baş nazirinin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi ilə görüşüb

Azərbaycan Respublikasının Pakistandakı səfiri Əli Əlizadə Pakistan Baş nazirinin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi, ehtiyyatda olan general-leytenat Nasir Xan Janjua ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüşdə Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında mövcud olan qardaşlıq və dostluq münasibətlərinin hər iki ölkənin rəhbərlərinin səyi və diqqəti nəticəsində gün bə gün daha da möhkəmləndiyi, bu münasibətlərin bütün sahələri əhatə etdiyi vurğulanıb. Ermənistanın işğalçılıq siyasəti və təxribatları haqqında məlumat verən səfir Əli Əlizadə ermənilərin tarix boyu müsəlmanlara, xüsusən azərbaycanlılara qarşı qərəzli mövqe sərgilədiyini, bir çox qətliamlar, soyqırımları törətdiyini qeyd edib. Müasir dövrdə ağıla belə gəlməyən, ermənilər tərəfindən xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımının bütün bəşəriyyətə qarşı cinayət olduğunu bildirən Əli Əlizadə Pakistan Milli Assambleyasının və Senatının Xarici Əlaqələr Komitələrinin bu faciəni soyqırım kimi tanımasının Azərbaycan dövləti və xalqı tərəfindən yüksək qiymətləndirildiyini bildirib.



Nasir Xan Janjua Pakistanın da on illərdir terrorizmlə mübarizə apardığını, bu mübarizədə on minlərlə qurbanlar verdiyini, Azərbaycanla Pakistanın hər zaman bir birini anladığı və dəstəklədiyini qeyd edib, ikitərəfli münasibətlərin daha da genişləndirilməsi istiqamətində səylərin artırılması gərəkdiyini vurğulayıb. Görüşdə əməkdaşlığın davam etdirilməsi, birgə tədbirlərin, layihələrin həyata keçirilməsi istiqamətində də fikir mübadiləsi aparılıb.

## Robert Sekuta: “Azərbaycan və ABŞ gənclərinin inteqrasiyası vacib məsələlərdən biridir”

Gənclərlə əməkdaşlıq, onların imkanlarının reallaşdırılmasına kömək, eləcə də Azərbaycan və ABŞ gənclərinin inteqrasiyası vacib məsələlərdən biridir. Bunu ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta illik gənclər forumu zamanı deyib. /Trend/ Səfir bildirib ki, bu, Birləşmiş Ştatlarla Azərbaycanın həmin sahədə necə əməkdaşlıq edə biləcəyini göstərir.



# Nəsimi rayon gənclərinin 2 Fevral Gənclər Günü münasibəti ilə möhtəşəm bayram tədbiri keçirilmişdir



Azərbaycanda ölkə rəhbərliyi tərəfindən gənc nəslə olan diqqət və qayğı hər zaman diqqət mərkəzində olmuş və hazırda da günü-gündən artmaqdadır. Ulu Öndərimiz Heydər Əliyevin gəncliyə göstərdiyi qayğının bir təzahürü kimi, fevral ayının 2-si respublikamızda Azərbaycan Gənclər Günü elan olunmuşdur. 1997-ci ildən bəri hər il fevral ayının 2-si respublikamızın gəncləri bu günü qeyd edirlər. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında, ilk dəfə olaraq, Azərbaycanda qeyd olunmağa başlanmış, dünyada isə yalnız 1999-cu ildə BMT-nın qərarı ilə avqustun 12-si Ümumdünya Gənclər Günü elan edilmişdir. Ümummilli Liderimiz Heydər Əliyev siyasətinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bu gün öz fəaliyyətində Azərbaycan gəncliyinin sağlamlığı, təhsili, bilik və peşəkarlıqlarının artırılması, onların sosial problemlərinin həlli istiqamətində böyük işlər görür. 2007-ci ilin "Gənclər İli" elan edilməsi ölkə tarixində əlamətdar bir hadisə olmuşdur. 2011-ci ildə dövlət başçısının Sərəncamı ilə "Azərbaycan Gəncliyi Dövlət Proqramı" təsdiq olunmuş, Gənclər Fondu yaradılmışdır. Gənclərin sosial problemlərinin həlli istiqamətində mühüm işlər həyata keçirilmişdir.

Tədbirdə çıxış edən Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov dəvət olunanları salamlayaraq, qeyd etmişdir ki, dahi Heydər Əliyev Azərbaycan gəncliyini, hər mənada, güclü görmək istəyirdi. Odur ki, Ümummilli Liderimiz Heydər Əliyev 1994-cü ilin iyulunda Azərbaycanda Gənclər və İdman Nazirliyini yaratdı və gəncləri bir araya topladı. 1996-cı il fevralın 2-də isə ilk dəfə müstəqil dövlətimizin Gənclər Forumu keçirildi və daha sonra Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncamla fevralın 2-si Azərbaycan Gənclər Günü elan edildi. Asif Əsgərov bildirdi ki, gənclərə, gələcək nəslə çox böyük fikir verən, onların problemlərini hər zaman diqqət mərkəzində saxlayan, hər zaman gənclərə dəstək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Heydər Əliyev Fondunun Azərbaycanın mədəniyyətinin və tarixinin, ölkədəki nailiyyətlərin dünya miqyasında təbliği və tanınmasında böyük rolu vardır. Tədbirdə çıxış edən digər çıxışçılar ölkədə və Nəsimi rayonunda gənclərlə bağlı görülən işlərdən danışmış, gəncləri bayram münasibəti ilə təbrik etmiş və onlara uğurlar arzulamışlar.

Tədbirdə rayonun ictimai-siyasi həyatında, təhsildə, idmanda, elm, mədəniyyət və s. sahələrində fərqlənən, ümumilikdə, 35 gəncə nominasiya üzrə Nəsimi rayon icra hakimiyyətinin Fəxri Fərmanları və qiymətli hədiyyələri təqdim olunmuşdur.

Nəsimi gənclərini təbrik edənlər arasında Milli Məclisin üzvləri - Ziyad Səmədzadə, Məlahət İbrahimqızı, Azər Badamov, Eldəniz Səlimov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan-Fransız Universitetinin direktoru Vazeh Əsgərov, Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva və digər rəsmilər iştirak edirdilər.

Bayram tədbiri Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestrinin, 2 və 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzlərinin kollektivlərinin iştirak etdiyi böyük konsert proqramı və gənclər diskotekası ilə başa çatmışdır.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

# Yevlaxda 2 Fevral Gənclər Günü münasibəti ilə tədbir keçirilib



Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatı Yevlax şəhər Mədəniyyət Mərkəzi və Yevlax şəhər Gənclər və İdman İdarəsi 2 Fevral Gənclər Günü ilə bağlı birgə süfrə ətrafında tədbir təşkil edib. Tədbiri giriş sözü ilə Yevlax şəhər icra hakimiyyəti başçısının I müavini YAP Yevlax rayon təşkilatı idarə heyətinin üzvü Qənimət Qaraşov açaraq, gəncləri təbrik etdi. O, Cənab Prezidentimizin Azərbaycan gənclərinə, xüsusilə, region gənclərinə göstərdiyi diqqətdən söz açaraq, Yevlax şəhərində tikiləcək Olimpiya Kompleksinin Yevlax gəncləri üçün ən böyük hədiyyə olduğunu dilə gətirdi.

YAP Yevlax rayon təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova, gənclər birliyinin sədri Ariz Mikayılov, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən geniş söz açdılar. Bildirdilər ki, son illər rayonda gənclər evi inşa olunub, təhsil ocaqlarında idman meydançaları və zallar tikilərək istifadəyə verilmişdir. Yeni iş yerlərində çalışanların böyük əksəriyyəti gənclərdir. Zöhrə Adıgözəlova və Bünyamin Musayev çıxışlarında qeyd etdilər ki, təsadüfi deyil ki, Cənab Prezidentimizin yüksək qayğı və diqqəti sayəsində bu gün ölkəmizin bütün şəhər və rayonlarında gənclər irəli çəkilir. Onlara məsul vəzifələrin icrası həvalə olunur. Bu cür yüksək qayğıya görə yevlaxlı gənclər adından ölkə Prezidenti İlham Əliyev Cənablarına minnətdarlığımızı bildiririk.

Sonra YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev tədbirdə çıxış edərək, təntənəli bayram münasibəti ilə Azərbaycan gəncliyini təbrik etdi. O, Yeni Azərbaycan Partiyasının gənclərə yanaşma tərzindən danışaraq, vurğuladı ki, gənclər partiyanın gələcəyə baxan gözü, ölkəmizin rifahı naminə nəzərdə tutulmuş inkişaf proqramını reallaşdıracaq ən aparıcı güvvəsidir. Sevinirik ki, bu gün Azərbaycan gəncliyi müasir inkişaf etmiş dövlətdə dövlət rəhbərinin birbaşa qayğısı ilə çox sağlam ruhda formalaşıb inkişaf edirlər.

Sonda partiyanın ictimai-siyasi həyatında fəallıq göstərən bir qrup gənc YAP Yevlax rayon təşkilatı və Yevlax şəhər Mədəniyyət Mərkəzi tərəfindən Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı. Partiya sıralarına yeni qoşulan bir qrup gəncə yeni partiya üzvlük vəsiqələri təqdim olundu.

**ZÜMRÜD**

# "Gənclərimiz peşəkar olmaq qabiliyyətlərini kifayət qədər artırıblar"



"Azərbaycanda gənclərlə bağlı əsası Ulu Öndər tərəfindən qoyulan böyük siyasət həyata keçirilir. Ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasəti modeli digər ölkələr tərəfindən öyrənilərək tətbiq olunur". Bunu SİA-ya açıqlamasında Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Şahin İsmayılov deyib. Azərbaycanda gənclər siyasətinin əsasının Ümumilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra qoyulduğunu deyən komitə üzvü söyləyib ki, Ulu Öndər çətin dövr olmasına baxmayaraq, 1993-cü ildə Ali Sovetdə bir qrup gənci qəbul edərək, müstəqilliyimiz dövründə onların üzərinə düşən vəzifələri qeyd etmişdi: "Daha sonra ölkəmizdə 1997-ci ildə Gənclər Forumu keçirildi, gənclər günü təsis olundu, daha sonra gənclərlə bağlı qanun və proqramlar qəbul edildi".

Ş. İsmayılovun sözlərinə görə, gənclər sahəsi elə bir sahədir ki, bu onunla bağlı çox gözəl nümunələr göstərmək olar: "İndiyə qədər gənclər siyasətinə dair bir sıra proqramlar qəbul olunub. Bu proqramlar ölkəmizdə gənclər üçün infrastrukturun yaradılmasından başlanıb, onların xaricdə təhsilinə, yardıcı və elmi fəaliyyətlə məşğul olan gənclərlə yanaşı kütləvi idmanı təbliğ etməklə sağlam gəncliyin formlaşmasına töhvə verməklə çox geniş spektrı əhatə edib. Bu proqramlardan minlərlə Azərbaycan gənci yararlanıb və indidə yararlanmaqda davam edir. Bu proqramların nəticəsi olaraq yeni-yeni gənc liderlər yaranıb və onlar bu və ya digər sahədə Azərbaycan dövlətinə, o cümlədən gəncliyimizin inkişafına bu gün də töhvə verməkdədirlər".

2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyasından söz açan Ş İsmayılov deyib ki, ümumiyyətlə, indiyə qədər görülən işlər bundan sonra görülən işlərin təminatçısıdır ki, bu da çox sevindiricidir: "Aparılan təhlillər göstərir ki, gənclərimiz azərbaycançılıq məfkurəsini, o cümlədən peşəkar olmaq qabiliyyətlərini kifayət qədər artırıblar. Mən bütün gəncləri "Gənclər günü" münasibətilə ilə təbrik edirəm".

# "Maire Tecnimont": SOCAR-la imzalanan müqavilənin dəyəri 800 milyon dollardır

İtaliyanın "Maire Tecnimont S.p.A." şirkətlər qrupunun "Tecnimont/Kinetics Technology" Alyansı ilə SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ) arasında imzalanan müqavilənin dəyəri təxminən 800 milyon ABŞ dollarına bərabərdir. AZƏRTAC xəbər verir ki, bu barədə "Maire Tecnimont" məlumat yayıb. Bildirilir ki, layihənin müqavilə imzalanan tarixindən etibarən 41 ay ərzində tamamlanması nəzərdə tutulur.



# SABAHA İNAMLA...



Dünən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində YAP-ın ərazi ilk partiya təşkilatının yığıncağı keçirilib. Tədbiri giriş sözü ilə ərazi ilk partiya təşkilatının sədri Xeyrulla Hümbətov açaraq, tədbir iştirakçılarını 2 Fevral Gənclər Günü münasibətilə təbrik edib. O bildirib ki, 1997-ci ildə Ulu Öndər Heydər Əliyev "2 Fevral Azərbaycan Gənclər Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. Gənclər hər bir ölkənin ictimai - siyasi, sosial-iqtisadi, elmi-mədəni və humanitar həyatında mühüm rola malik potensial qüvvə kimi mühüm yer tutur. Ulu Öndər Heydər Əliyev gənclərə güvənərək, daim onlara böyük etimad göstərirdi. Azərbaycanda gənclər siyasəti, dövlət siyasətinin hər zaman əsas tərkib hissəsi kimi, xüsusi yer tutub. Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını daim öz üzərində hiss edib.

Ulu Öndərin təməlini qoyduğu bu siyasi kurs hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sonra natiq bildirdi ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun rəhbərliyi altında dəmiryolçular bu gün yeniləşmə, yeni texnologiyaları mənimsəmə və sürətli inkişaf dövrünü yaşayırlar. Ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qayğı və dəstəyi ilə beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşması prosesində aktiv iştirak edir, ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır. Əsas vəzifə Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edərək, beynəlxalq nəqliyyat dəhlizləri çərçivəsində, Mərkəzi və Şərqi Asiyadan Avropaya və əks-istiqamətdə, ölkə ərazisindən keçən marşrutlara, tranzit yüklərin cəlb edilməsidir. Bu baxımdan, Bakı-Tbilisi-Qars, Şimal-Cənub, Şərq-Qərb, Cənub-Qərb nəqliyyat dəhlizlərinin reallaşması böyük gələcək vəd edir. Bu marşrutlara yük axınının cəlb edilməsi üçün bütün imkanlar səfərbər edilib. Bütün bu işlərdə gənc dəmiryolçular aktivlik göstərirlər.

Tədbirdə ərazi ilk partiya təşkilatının üzvləri Həbib Misirov, Söhrab Həşimov və Jalə Əfəndiyeva çıxış edərək, ölkəmizdə gənclərə göstərilən qayğıdan danışıblar. Sonda partiya fəalı Söhrab Həşimov YAP-ın Gənclər Birliyinin 2017-ci ildəki ictimai-siyasi həyatındakı fəal iştirakına görə diploma təltif olunub.

**ZÜMRÜD**

## Qusarda 2 Fevral Gənclər Günü qeyd olunub



YAP Qusar rayon təşkilatının və rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 2 Fevral Gənclər Günü münasibəti ilə tədbir keçirilib. Qusar rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan YAP Siyasi Şurasının üzvü, rayon təşkilatının sədri David İbramxəlilov gəncləri təbrik edərək, bildirib ki, Ulu Öndərin 1997-ci il imzaladığı Fərmana əsasən, 2 Fevral Azərbaycan Gənclər Günü elan edilib: "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxmışdır. Ulu Öndərin gənclərlə bağlı məsələləri həmişə siyasətin əsas tərkib hissələrindən biri hesab etdiyini vurğulayan rayon təşkilatının sədri qeyd edib ki, Ümummilli Lider gənclərin imkan və bacarıqlarını yüksək səviyyədə qiymətləndirmiş və onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermişdir". Tədbirdə iştirak edən YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev bildirib ki, Azərbaycanda gənclər siyasətinin banisi Ulu Öndər Heydər Əliyevin gənc kadrların yetişdirilməsində əvəzsiz xidmətləri olub. Daha sonra tədbirdə rayonun gənc əlilləri tərəfindən hazırlanmış əl işlərindən ibarət sərgiyə baxış keçirilib və bir qrup gəncə qiymətli hədiyyələr təqdim olunub.

**NƏZAKƏT**

## "Full" paketinə qoşulmuş "Nar" abunəçiləri "Samsung Galaxy S8", "Ipad Pro" və "Samsung Gear S3" qazandılar

"Nar" öz istifadəçiləri üçün daha bir maraqlı kampaniya keçirdi. Belə ki, 29 dekabr 2017-ci il - 28 yanvar 2018-ci il tarixləri arasında "Full" paketinə qoşulmuş və "28 Mall" alış-veriş mərkəzinin 1-ci mərtəbəsindəki "Nar" stendinə yaxınlaşmış abunəçilər mobil operatordan dəyərli hədiyyələr qazandılar.

Stendə yaxınlaşaraq kupon əldə etmiş abunəçilər arasından ən şanslı 3 nəfər iştirakçı 29 yanvar 2018-ci il tarixdə "28 Mall" AVM-nin 3-cü mərtəbəsində təsadüfi keçirilmiş seçimlə qalib elan edildi. Beləliklə, "Samsung Galaxy S8" smartfonu qazanmış Elşad İsgəndərov, "Ipad Pro" planşeti udmuş Cavid Süleymanov və "Samsung Gear S3" saatı əldə etmiş Yetər Mustafayeva kampaniyanın qalibləri oldular.

"Nar"-ın tamamilə yeni "Full" paketlərindən birinə qoşulan abunəçilər bu sərfəli təklif sayəsində bol ünsiyyətdən həzz almanın sevincini yaşayırlar. Ölkədaxili danışıq dəqiqələri və bol internetin daxil olduğu paketlərin əsas özəlliyi qazanılan bonusların növbəti aya keçməsidir. Abunəçilərin arzu və istəklərini hər zaman nəzərə alan "Nar" istifadə edilməyən bonusların bir sonrakı aya keçməsini məhz "Full" paketi ilə təmin etdi.




"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Gənclər bayramlarını qol güclərini sınamaqla qeyd etdilər



2 Fevral Gənclər Günü münasibətilə Nizami rayon icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının, Azərbaycan Qol Güləşi Federasiyasının və Texnika və Texnologiyalar üzrə Bakı Dövlət-Peşə Təhsili Mərkəzinin birgə



təşkilatçılığı ilə gənclər arasında qol güləşi yarışı keçirilib.

Dövlət Himninin səsləndirilməsindən sonra çıxış edən Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, Avropa Armrestlinq Federasiyasının vitse-prezidenti, Azərbaycan Qol Güləşi Federasiyasının prezidenti Cəsarət Əhmədov, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət-Peşə Təhsili Mərkəzinin direktoru Qalib Həsənov və başqaları dövlətin uğurlu gənclər siyasətindən və onlara yaradılan şəraitdən danışıblar. Çıxışlardan sonra yarışa strart verilib.

Yarışlardan sonra qaliblər mükafatlandırılıb.

**RÖVŞƏN**

## Balakəndə 2 Fevral Gənclər Günü ilə bağlı tədbir keçirilib



Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı və gənclər birliyinin tədbirlər planına uyğun olaraq, partiyanın inzibati binasında rayonun İdman və Gənclər İdarəsi ilə birgə toplantı keçirilmişdir. Toplantını idarənin rəhbəri Rasim Paçalov açaraq, Azərbaycan gəncliyinin dünəni, bu günü və sabahı mövzusunda geniş məruzə etmişdir. Müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar içində 2 Fevral Gənclər Gününün təsis edilməsi mühüm əhəmiyyət kəsb edir. Gənclər İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk forumunun keçirilməsi "Dövlət-gənclər siyasəti" haqqında Fərman, Ulu Öndərin Azərbaycan gəncliyinə olan diqqət və qayğısının nəticəsidir.

Tədbirdə çıxış edən gənclər Möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycan gəncliyinə olan diqqət və qayğısından qürur duyduqlarını vurğulamış, 2018-ci ilin prezident seçkilərində, Ona gənclərin dəstəyinə əmin olmağı bəyan etmişdirlər. Gənclərin mənəvi inkişafı, xaricdə təhsili, gənclər təşkilatının formalaşması və Azərbaycan gəncliyinin inkişafı üçün yaradılan şəraitin nəticəsidir.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı İslam Rzayev rayon gənclərinin idman və təhsil sahəsində qazandığı müvəffəqiyyətlərdən danışmış və onlara gələcək işlərində uğurlar arzulamışdır.

**Z.BAYRAMOVA**

# Gənclər günü Şamaxı rayonunda qeyd edildi



Şamaxı rayonundakı Heydər Əliyev Mərkəzində "Respublika Gənclər Günü"nün qeyd olunması münasibəti ilə Şamaxı gənclərinin ümumrayon toplantısı keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirə rayonun idarə və təşkilatlarının, ümumtəhsil orta məktəblərinin, ali və orta ixtisas təhsili müəssisələrinin, gənclər təşkilatlarının, bədən tərbiyəsi və idman kollektivlərinin fəal gəncləri dəvət olunub. Ümumilikdə tədbirdə 60 gənc iştirak edib. Tədbirdə həmçinin Şamaxı rayon icra hakimiyyəti başçısı aparatının baş məsləhətçisi Babaqədir Qədirov da iştirak edib. Tədbir başlanmazdan öncə toplantı iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərərək abidə önünə tər gül dəstələri qoyublar.

Sonra isə tədbiri giriş sözü ilə açan Şamaxı RİH-in Başçısı aparatının baş məsləhətçisi Babaqədir Qədirov toplantı iştirakçılarını salamlayıb və "Respublika Gənclər Günü" münasibəti ilə bütün gəncləri təbrik edib.

Şamaxı rayon Gənclər və İdman idarəsinin rəisi Şahmar Hüseynov çıxış edərək təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən Dövlət gənclər siyasəti çərçivəsində rayonda görülmüş işlər haqqında geniş məruzə edib.

Sonra Şamaxı şəhər 1 saylı orta məktəbin müəllimi Güney Məmmədova, Əngəxaran kənd orta məktəbin Fiziki tərbiyə müəllimi Elçin Nəcəfov, Şamaxı Dövlət Regional kollecinin tələbəsi Şəbnəm Qurbanlı, Hərbi hissənin çavuşu Alı Həsənov, İnşaatçı tam orta məktəbin XI sinif şagirdi Ülkər Qarayeva, Taekvondo idman növü üzrə məşqçi Xanım Osmanova mövzu ətrafında çıxış ediblər.

Çıxışlar bitdikdən sonra ötən dövr ərzində bədən tərbiyəsi, idman və gənclər sahəsində fərqlənən bir qrup gənc Şamaxı rayon Gənclər və İdman idarəsinin fəxri fərmanları və qiymətli hədiyyələri ilə təltif edilib.

Sonda tədbirdə iştirak edən rayon gənclərini maraqlandıran suallar üzərində (gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə bağlı, elm, təhsil, incəsənət, idman sahələrində və s.) müzakirələr aparılıb və problemlərin həlli istiqamətində görüləcək işlər müəyyənləşdirilib.





# YAP Astara rayon təşkilatında Gənclər Günü ilə əlaqədar tədbir keçirilmişdir

Dünən YAP Astara rayon təşkilatının inzibati binasında 2 Fevral Gənclər Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq, 2 Fevral Gənclər Gününün təsis edilməsi tarixi barədə iştirakçılara məlumat vermişdir. Qeyd etmişdir ki, xalqımızın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanımızın banisi olaraq, xalqımızın birliyi, mütəşəkkilliyi ilə əlaqədar tarixi addımlar atmışdır. Həyata keçirilən belə tədbirlərdən biri də, ilk dəfə olaraq, ölkəmizdə gənclər forumlarının keçirilməsi və gənclər gününün təsis edilməsidir. Ölkə Prezidenti Möhtərəm Cənab İlham Əliyev, bu ənənəyə sadiq qalaraq, gənclərin hərtərəfli inkişafı, xalqına Vətəninə layiqli vətəndaş kimi yetişməsi üçün ölkəmizdə hər cür şərait yaradılmasına nail olmuşdur. Elə rayonumuzun gənclərinə hədiyyə edilən, Cənab Prezidentin açılışlarında iştirak etdiyi Heydər Əliyev Mərkəzi, Gənclər Evi, Olimpiya İdman Kompleksi, Astara Boks Mərkəzi buna bariz nümunədir.



YAP Astara rayon təşkilatının gənclər birliyinin sədri Tural Eyvazov, rayon icra hakimiyyətinin məsul işçisi Elnur Rəsulov, "Astara" qəzetinin baş redaktoru Fəridə Söhrabqızı, Heydər Əliyev Mərkəzinin bələdçisi Cəmalə Məmmədova, Astara rayon Mərkəzi Kitabxanasının işçisi Aysel Əhmədova və başqaları tədbirdə çıxış etmişlər.

**NƏZAKƏT**

# Gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub

## *2 Fevral Gənclər Günü ilə əlaqədar Tərtər rayon icra hakimiyyəti və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə ümumrayon tədbiri keçirildi*

***Dünən 2 Fevral Gənclər Günü ilə əlaqədar Tərtər rayon icra hakimiyyəti və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə ümumrayon tədbiri keçirilib. Tədbirlər iştirakçıları, öncə, Ulu Öndərin rayonun mərkəzi meydanında ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri qoyaraq Onun xatirəsini ehtiramla yad ediblər. Sonra gənclərin hazırladığı əl işləri və rəsmlərdən ibarət sərgiyə baxış keçirilib. Tədbir Mədəniyyət Mərkəzinin iclas zalında davam etdirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin canlı ifası ilə başlayıbdı. Rayon gənclər və idman idarəsinin rəisi, YAP Tərtər rayon təşkilatı gənclər birliyinin sədri Emin Pənahov tədbirdə rayon gənclərinin 2017-ci ildəki fəaliyyətləri barədə hesabat xarakterli məruzə ilə çıxış etdi. E.Pənahov məruzəsində göstərdi ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti ölkəmizdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən, bu gün Azərbaycan gəncliyi ölkənin həyatının bütün sahələrində dövlətçiliyin müdafiəsi və iqtisadi inkişafın təmin olunmasında fəal rol oynayırlar.

Tədbirdə Qaraağacı kənd tam orta məktəbinin müəllimi Rəşad Qarayev, Ağdərə Şəhər Körpələr Evi-Uşaq Bağçasının müdiri Nigar Hüseynova, Kovdadıq Kənd Kitabxanasının müdiri Nigar Əlizadə,



rayon Polis Şöbəsinin İctimai Təhlükəsizlik Bölməsinin polis sahə rəisi Bəxtiyar Əliyev, mərkəzi rayon xəstəxanasının tibb bacısı Çinarə Əzizbəyli çıxış edərək, Azərbaycan gənclərinə göstərilən dövlət qayğısına görə ölkə Prezidenti, partiyamızın Sədri Cənab İlham Əliyevə öz təşəkkürlərini bildirərək, göstərdilər ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərində xalqın namizədi İlham Əliyevi dəstəkləyərək, Onun növbəti illərdə də Azərbaycan xalqına rəhbərlik etməsinə, bununla da, xoş gələcəyimizin təmin olunmasına səs verəcəklər.

Rayon gənclərini təbrik etmək üçün çıxış edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov müstəqil Azərbaycan dövlətinin gənclər siyasətinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu siyasətin həyata keçirilməsinin uğurlu nəticəsi olaraq, gənclər üçün ölkədə hər cür şərait və imkanların yaradıldığını göstərdi. O, qeyd etdi ki, Azərbaycan gəncləri də Heydər Əliyev ideyalarına sadiqliklərini, yaşadıqları və əməli işlə məşğul olduqları idarə, müəssisə və təşkilatlarda ölkəmizin müdafiəsinin təmin olunmasındakı nümunəvi davranış və xidmətləri ilə göstərirlər.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup gəncə rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası rayon təşkilatı Gənclər və İdman idarəsi tərəfindən fəxri fərman və qiymətli hədiyyələr təqdim olundu. Tədbir rayon Mədəniyyət Evi və musiqi kollektivinin hazırladığı konsertlə yekunlaşdırıldı.

**Z.BAYRAMOVA**

# "GAP" lideri Rəsul Quliyevin xəstə olduğu üzə çıxdı



***Sivil qaydada fəaliyyət sərgiləyən müxalifət dünya ictimaiyyəti tərəfindən normal qarşılanır. Hətta bu qüvvələrin qəbul olunmuş fəaliyyət mexanizmi də geniş kütləyə tanışdır və heç bir rezonans doğurmur. Əksinə, hər hansı ölkədə hakimiyyətə iddialı olan müxalifət düşərgəsi, onun lideri dövlətin və xalqın maraqlarına xidmət etməklə öz varlığını, imkanlarını, potensialını təsdiq etməyə və ictimai dəstəyi qazanmağa çalışır. Nəticədə, hakimiyyətə layiqli olduğunu sübut etməklə, hakimiyyət uğrunda mübarizəyə qatılır.***

Azərbaycanda müxalifət isə özünəməxsus, görünməmiş və analoqu olmayan fəaliyyət sərgiləyir. Onların bu fəaliyyətinə xarakterik olan xüsusiyyətlər isə şər, böhtan, qarayaxma və qeyri-etik davranışlar daxildir. Hansı müxalifət qurumunun, onun funksionerinin fəaliyyətinə nəzər salsaq, qeyri-sivil mübarizə metodunun şahidi oluruq. Bəzən dağıdıcı müxalifət şər - böhtanla da kifayətlənmir və liderləri yersiz iddialarla çıxış edir və ictimaiyyəti aldatmağa çalışır.

Ötən əsrin 90-cı illərindən hazırkı dövrədək, hər seçkiqabağı mərhələdə oyanıb, seçkidən sonra komaya düşən müxalifət hələ də öz ənənəsinə sadiqdir. Yuxudan yenicə ayılanlar arasında isə eks-spiker Rəsul Quliyev öz sayıqlamaları ilə, xüsusilə, seçilir. Letargiya yuxusuna bənzər, 5 il davam edən uyquda bütün fantaziyasını və təxəyyülünü səfərbər edən "GAP" lideri oyanan kimi başlayır yuxu yozmaya. Bu dəfə də yuxularına, xəyallarına və təxəyyülünə istinad edən Quliyev fantaziyalarını gizlətmir və ən layiqli namizəd kimi seçkilərdə uğur qazanacağına hamını inandırmağa çalışır. Amma görək buna inanan kimsə varmı? Yaxud yalanlarına kimisə inandıracağına şəxsən özü inanırmı?

Neft emalı zavodunun direktoru olduğu dövrdə də, spiker olduğu dövrdə də R.Quliyevin rüşvətxor fəaliyyəti ictimaiyyət üçün sirr olmayıb. Bu xalqın və dövlətin sərvətlərindən istifadə edərək, mənimsədiyi vəsaitlər hesabına illərdir Amerika kimi əcnəbi ölkədə yaşayan "GAP" sədrinin özünü məsum qələmə verməsi absurddur. Əbülfəz Elçibəyin hakimiyyəti dövründə, zavod direktoru kimi, 52 mln dollar vəsaitin mənimsənilməsi ittihamı ilə barəsində qaldırılan cinayət işi bu faktı təsdiqləyir.

Hazırda ABŞ-da yaşayan bu mühacir utanmadan demokratiyadan dəm vurur, rüşvətxorluq, korrupsiya barədə ağızdolusu danışır, özünü ideal təmiz, demokrat və antikorrupsioner kimi sırımağa çalışır. Halbuki zavod rəhbəri olduğu dövrdə də, spiker olduğu vaxtda da nə dərəcədə demokrat olması da bəlli idi, hətta korrupsiya məsələləri də göz qabağında idi. Bütün bu faktları danmaq və təkzib etmək lüzumsuzdur.

Mərhum AXCP sədri Ə.Elçibəy AXC hakimiyyətinin dağılmasında R.Quliyevi günahkar hesab edirdi və dəfələrlə bildirmişdi ki, onların hakimiyyəti, məhz onun talan etdiyi pullara və vəsaitlərə görə yıxıldı. Təbii ki, Quliyev talançılığa görə, o dövrdə də məşhur idi və bunu hamı çox yaxşı bilirdi. Bu da, gizli deyildi ki, R.Quliyev topladığı vəsaitlərə çox arxalanırdı və hər zaman hakimiyyət naminə bundan istifadə edəcəyinə çox inanırdı. Məhz elə buna görə də, Ə.Elçibəy onun vəsaitləri hesabına siyasətdə uğur qazanmaq xülyasının nəticəsiz qalacağını vurğulayaraq, demişdi ki, R.Quliyev pul qoyub, pul götürə bilər, amma pul qoyub, siyasətdə uğur qazana bilməz.

"GAP" lideri bu tarixi faktları hamıdan yaxşı xatırlayır və ola bilsin ki, indi Ə.Elçibəyin 7 iyul 1992-ci ildə prezident seçkilərində saxta yolla seçilməsi fikirlərini də bilərəkdən və qıcıqlanması səbəbindən ortaya atıb. Elçibəyin köməkçisi Oqtay Qasımov ona sərt cavab verərək, xaricdə dəllallıqla məşğul olan bu adama mənimsədiyi 52 milyon dolları və barəsində açılan cinayət işini xatırladır. R.Quliyevin əməllərində cinayət tərkibinin olmasını xatırlatmaq yetər ki, onun kimliyi barədə, hətta tanımayanlarda belə təsəvvür yaransın. Onun bu cinayət əməlləri isə, artıq müxalifət düşərgəsinin özü tərəfindən də etiraf edilir. Belə olan təqdirdə, yəni heç cılız müxalifət sıralarında belə etibarı olmayan biri nəyə ümid edə bilər?

R.Quliyev dəfələrlə etiraf edib ki, son şansını sınamaq fikrindədir. Əslində, bu şansın son olduğunu bildirməklə, bunun mümkünsüz olduğunu dolayısı ilə etiraf edir. Başqa bir məqamda isə, özünün qocaldığını və hətta vəzifənin öhdəsindən belə gələ bilməyəcəyini də danmır. Elə isə, meydanda gündəmə gəlmək, boş vədlərlə çıxışlar etmək nəyə lazımdır?

Göründüyü kimi, R.Quliyev də, onun ətrafında olanlar da nə dediklərinin, nə etdiklərinin fərqində deyillər. Belə insanların, nəinki liderliyi, rəhbər vəzifə daşıyacağı, hətta sağlam düşüncəyə malik olmaları belə şəmiyyətdə şübhə doğurmaqdadır. R.Quliyevin xəstə təxəyyülü ictimaiyyətə tanışdır. Azərbaycan xalqı belə insanları heç zaman dəstəkləyə bilməz və əslində, onların özlərinin də belə bir dəstəyə zərrə qədər ümidləri yoxdur.

**"Pul qoyub, pul götürə bilər, amma pul qoyub, siyasətdə uğur qazana bilməz"**

***İnam HACIYEV***

# Teyyub Qənioğlu: "İsa Qəmbər Əli Kərimliyə güzəştə getməyəcək"



**Müsahibimiz Təkamül partiyasının sədri Teyyub Qənioğludur**

**- Teyyub bəy, Müsavatın keçmiş başqanı İsa Qəmbərin səhhəti ilə əlaqədar olaraq, onun prezidentliyə namizədliyindən imtina edib, başqa bir namizədin irəli sürülməsi ideyası ilə çıxış etməsi nə dərəcədə mümkündür?**

- İsa bəyin şəfasını Allah versin. Amma bildiyiniz kimi hələ ki prezident seçkilərinə xeyli vaxt qaldığına görə, yəqin ki, İ.Qəmbər iddiasından imtina etməyəcək. Beləliklə, o, israrlı olaraq, namizədliyini irəli sürəcək və başqa namizəd olmayacaq. Bir sözlə, bu il keçiriləcək prezident seçkiləri ilə bağlı olaraq, Müsavat partiyası daxilində İ.Qəmbərdən başqa kiminsə namizədliyinin irəli sürülməsi gözlənilən hal deyil.

**- İsa Qəmbərin mövcud vəziyyətindən istifadə edib, Əli Kərimli müxalifətə onun vahid namizədliyini dəstəkləmək çağırışı ilə çıxış edə bilərmi?**

- Müxalifətə onun vahid namizədi dəstəkləmək çağırışı ilə çıxış etməsini Ə.Kərimli istəyə bilər. Amma istəmək, o demək deyil ki, Ə.Kərimli vahid namizədin olmağını istəsə kimlərsə onu qəbul edəcəklərmi? Demək olar ki, bu gün müxalifət düşərgəsində AXCP sədri olan Ə.Kərimlinin əleyhinə olan çoxlu qüvvələr var. İnandırıcı görünmür ki, bütövlükdə, müxalifətin vahid namizədinə malik olmaq mümkün olsun. Yəni bu, təkcə Ə.Kərimliyə aid deyil. Bir sözlə, istənilən müxalifət düşərgəsində olan bir şəxsin, bütövlükdə, müxalifət adından vahid namizəd kimi irəli sürülməsi mümkün deyil.

**- "Milli Şura"nın üzvü Oqtay Güləliyev də Ə.Kərimlinin namizədliyinin irəli sürülməsinin əleyhinə çıxış edib. Bu, o deməkdir ki, "Milli Şura" daxilində C.Həsənlinin tərəfdarları daha çoxdur?**

- "Milli Şura" daxilində təkcə O.Güləliyevin sözü keçmir. Yəni həmin qurum daxilində Ə.Kərimlini də kifayət qədər dəstəkləyənlər var. Sonda ola bilər ki, "Milli Şura"dan ya Ə.Kərimlinin, ya da başqa bir şəxsin namizədliyi irəli sürülsün. Bu, C.Həsənli olmaya bilər.

***GÜLYANƏ***

# Tələbə könüllülərə təqaüd veriləcək




"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına müvafiq olaraq gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsinə ictimai dəstək verilməsi məqsədilə keçirilən "Könüllü" Tələbə Təqaüd Proqramı müsabiqəsi başa çatıb. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, ötən ilin oktyabrından başlanan müsabiqəyə 58 müraciət daxil olub. "Könüllü" Tələbə Təqaüd Proqramının büdcəsi dosent Nadir Adilov tərəfindən yazılan, Azərbaycan Universiteti Elmi Şurasının rəyi ilə nəşr edilən "Gəncsən? Başla!" gənclər üçün şəxsi inkişaf kitabının satışından əldə edilən vəsait hesabına və müəllifin şəxsi təşəbbüsü ilə formalaşıb.

Təqaüd fondunun ümumi məbləği üç min manat təşkil edir. Müsabiqəyə daxil olan müraciətlər komissiya tərəfindən dəyərləndirilib, iki tələbə könüllünün hər birinə 500 manat məbləğində birdəfəlik təqaüd verilməsi qərara alınıb. Həmçinin könüllülük fəaliyyətinin stimullaşdırılmasına dəstək məqsədilə 20 tələbə-könüllünün hər birinə 100 manat pul mükafatı ayrılmasına qərar verilib. Fevralın 8-də "YARAT" Müasir İncəsənət Məkanında keçiriləcək mərasimdə təqaüdlər tələbə könüllülərə təqdim olunacaq.

# 60 yaşlı kişidən yarım kiloqrama yaxın marixuana götürülüb



Neftçalada 60 yaşlı şəxsdən yarım kiloqrama yaxın marixuana götürülüb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Neftçala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılan Xıllı qəsəbə sakini, əvvəllər məhkum olunmuş 1958-ci il təvəllüdlü Çingiz Ağaverdi oğlu Bədəlovdan 457 qram qurudulmuş marixuana götürülüb. Saxlanılan şəxs götürülmüş maddi sübutla birgə istintaqa təhvil veriliblər. Faktla bağlı araşdırma aparılır.

# Bakıda mənzildə 88 yaşlı qadının meyiti tapılıb



Paytaxtda mənzildə 88 yaşlı qadının meyiti tapılıb. Fövqəladə Hallar Nazirliyindən SİA-ya bildiriblər ki, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən Bakı şəhəri, Nizami rayonunda 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb. Hadisə yerinə cəlb olunmuş Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri giriş qapısını açıb və orada aşkarlanan 1930-cu il təvəllüdlü Salamaşvili Lila Xalimovnanın cəsədini aidiyyəti üzrə təhvil veriblər. Əməliyyat başa çatıb.

# İranda jurnalisti təhqir edən şəhər meri işdən çıxarılıb

İranın İsfahan vilayətindəki Gülpayeqan şəhərinin meri Hüseyn Fərasət jurnalisti təhqir etdiyinə görə vəzifəsindən azad edilib. Yerli mətbuat yazır ki, mer şəhərdə həyata keçirilən tikinti layihəsi ilə tanış olan zaman vəzifə borcunu yerinə yetirən jurnalisti təhqir edib. Merin jurnalistə dediyi "əgər çəkiliş aparsan səni döyüb bayıra atacağam" sözlərini media nümayəndəsi kameraya yazıb və ictimailəşdirib. Bundan sonra, İsfahan vilayətinin valisi Möhsün Mehrəlizadə meri tutduğu vəzifədən azad edib və jurnalistdən üzr istəyib.

TƏRS BAXIŞ

***2018-ci il prezident seçkiləri yaxınlaşdıqca, radikal müxalifət düşərgəsində siyasi dividend qazanmaq uğrunda savaşlara da start verilib. Misal üçün, AXCP sədri Əli Kərimli ilə Müsavatın sabiq başqanı İsa Qəmbər və başqa sədrlərlə yaşanan qarşıdurmalar buna sübutdur. İndi isə, növbəti savaş baş qaldırıb.***



# “Meydan” TV Rəsul Quliyevlə Hüseyn Abdullayevi bir-birinə vurdu

## *İki satqın böyük savaşa başladı*

Xarici ölkələrdə mühacir həyatı yaşayan iki dövlət xaini - eks-spiker Rəsul Quliyevlə sabiq deputat Hüseyn Abdullayev arasında böyük savaşa start verilib. Belə ki, “Meydan” TV adlı internet televiziyasına müsahibə verən R.Quliyevin fikirləri qarşı tərəfin qıcıqlanmasına və onun sərt cavabına səbəb olub. Daha dəqiq desək, R.Quliyev AVP sədri, millət vəkili Fəzail Ağamalının H.Abdullayevlə bağlı açıqlamasını təkrarlayıb və bildirib ki, sabiq deputat prezident seçkilərinə qatıla bilməz. “Bu günlərdə isə, Emin Hüseynovun qonağı olan Rəsul Quliyev eyni ifadəni işlədərək, haqqımda xoşagəlməz və sərsəm sözlər işlətmiştir”-deyə qeyd edən H.Abdullayev bildirib ki, özünün gülünc danışıq tərzi ilə boşboğazlıq edən Rəsul Quliyevə bəzi sözləri var. SİTAT: “Birincisi, sən kimsən ki, mənim hansı potensialımın olub-olmadığını müəyyən edirsən? İkincisi, mənim sənə qoyduğum hörmətin səbəbi, hazırda təmsil olunduğun partiyanın təsiscisi və mənə yaxın olan Ağasif İbrahimovla bağlı idi. Yoxsa sən mənim üçün tamamən maraqsız və heç bir əhəmiyyət daşımayan, eyni zamanda, tarixin zibilliyinə atılmış siyasi bir boşluqsan”.

H.Abdullayev ittihamlarını daha da artıraraq, sabiq spikerin zavod direktoru vəzifəsindən o tərəfə layiq olmadığını bildirib və qeyd edib ki, R.Quliyev özündən razı birisidir və belə insanlardan tamamilə zəhləsi gedir: “Mənim, ümumiyyətlə, özündən razı olanlardan zəhləm gedir. Heç özünə hörmət edən adam deyərmi ki, mən kifayət qədər ağıllı adamam? İnsan var ki, yaşlaşanda, üzünə nur və kəlamlarına müdriklik gələr. Görünür, səndə əks-proses gedib”.

Sosial şəbəkədəki müraciətində fikirlərini qeyd edən Abdullayev yazır: “Dostlar, deməli, həmin bu tip Emin Hüseynovla apardığı saat yarımlıq verlişdə adıçəkilən hər kəsə qarşı mənfi fikir bildirdi”.

O, R.Quliyevi özünə düşmən hesab etdiyini qeyd etməklə yanaşı, bildirib ki, istədiyi qədər danışa bilər, ancaq onun bu fikirlərə heç bir əhəmiyyəti olmayacaq: “Bundan sonra istədiyin qədər çərənləyə bilərsən. Mənim daha sənə ayıracaq nə vaxtım, nə də istəyim var”. Onu da, qeyd edək ki, bu iki şəxs bir vaxtlar ABŞ-da görüş keçirərək, guya bir-birilərini dəstəkləyəcəklərini vəd etmişdilər. Lakin sonradan baş verən qalmaqallardan sonra bu iki dövlət xəyanətkarı arasında sular bulandı və göründüyü kimi, 2018-ci il seçkiləri onları daha qatı düşmənə çevirdi. Bütövlükdə isə, müxalifətdə bu cür tendensiyaların yaranacağı ehtimalı günü-gündən artır və qarşıdurmaların daha sürəkli hal alacağını ehtimal etmək mümkündür.

***R.NURƏDDİNOĞLU***

## Putinlə Mahmud Abbas fevralın 12-də görüşəcəklər

Rusiyanın dövlət başçısı Vladimir Putinlə Fələstin prezidenti Mahmud Abbasın görüşünün vaxtı müəyyənləşib. “Report”un “Qazeta.Ru”ya istinadən verdiyi xəbərə görə, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitriy Peskov məlumat verib. Onun sözlərinə görə, görüş fevralın 12-də baş tutacaq.

## Honq-Konqda bir şüşə “Yamazaki” viskisi 299 min dollara satılıb

Yaponiya istehsalı olan “Yamazaki 50 Years” maya viskisinin bir şüşəsi Honq-Konqdakı “Sotheby’s” auksionunda 299 min dollara satılıb. AZƏRTAC xəbər verir ki, bu, yapon istehsalı olan spirtli içkiyə indiyədək verilən ən yüksək qiymətdir. “Yamazaki 50 Years” markalı viski 2011-ci ilin dekabrında cəmi 150 şüşə istehsal edilib. Həmin içki elit maya növündən hazırlanaraq 50 il yapon palıdından düzəldilən çəlləklərdə saxlanıb. 2011-ci ildə bu viskinin bir şüşəsi Yaponiyada təqribən 9500 dollara satılıb. Həmin şüşələr kolleksionerlər və həvəskarlar tərəfindən alınıb. “Yamazaki 50 Years” viskisi Yaponiyanın tanınmış “Suntory Spirits” şirkəti tərəfindən buraxılan içki növlərindən biridir. Son illər bir çox müsabiqələrdə, o cümlədən Böyük Britaniyada təşkil edilən müsabiqələrdə qalib gəlmiş yapon viskisinə bütün dünyada maraq var.

## Liviya sahillərində 90 miqrant boğularaq ölüb

Cümə günü səhər Aralıq dənizinin Liviya sahillərində qeyri-leqal miqrantları daşıyan qayığın batması nəticəsində azı 90 nəfər boğularaq ölüb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat yayıb. Batan gəmidə təxminən yüz nəfər mühacir olub. Sahildə ikisi liviyalı, səkkizi pakistanlı olmaqla, 10 nəfərin cəsədi aşkarlanıb. Qayıqdakı miqrantlardan yalnız ikisi sağ qalıb. Onları dənizdə balıqçılar xilas ediblər.

# “Milli Şura” daxilində Əli Kərimliyə qarşı inam azdır”

## *Mais Səfərli: “Ola bilər ki, İsa Qəmbər öz iddiasından geri çəkilsin və kiminsə namizədliyini dəstəkləsin”*

***- Mais bəy, Müsavatın keçmiş başqanı İsa Qəmbər səhhəti ilə əlaqədar olaraq, prezidentliyə namizədliyindən imtina edib, başqa bir şəxsin namizədliyini irəli sürəcəyi ehtimalı nə dərəcədə mümkündür?***

- Ümumiyyətlə, səhhətində problem olan insanın prezidentliyə namizəd iddiasında olması düzgün deyil. Çünki o iddada olan insan sağlam olmalıdır. Qaldı ki, İ.Qəmbərin səhhəti ilə əlaqədar prezidentliyə namizədliyindən imtina edib, başqa bir şəxsin namizədliyini irəli sürməsi məsələsini, onu zaman göstərəcəkdir. Amma ola bilər ki, İ.Qəmbər öz iddasından geri çəkilsin və kiminsə namizədliyini dəstəkləsin.

***- İsa Qəmbərin mövcud vəziyyətindən istifadə edib, Əli Kərimli onun müxalifətə vahid namizədliyinin dəstəklənməsi çağırışı ilə çıxış edə bilərmi?***

- Ə.Kərimlinin müxalifətin vahid namizədi kimi çıxış etməsi mümkün deyil. Çünki indiyə qədər müxalifət partiyaları arasında vahid namizədlə bağlı vahid bir mövqe ortaya qoya bilməyiblər. Müxalifət bundan sonra da bu məsələdə ortaq mövqeyə gələ bilməyəcək. Demək olar ki, müxalifətin digər qanadlarında, Ə.Kərimliyə etimad və inam çox azdır. Bu faktorlara görə, Ə.Kərimlinin vahid namizədlik məsələsi, yəqin ki, baş tutmayacaqdır.



*Müsahibimiz “Yurddaş” Partiyasının sədri Mais Səfərlidir*

***- “Milli Şura”nın koordinasiya şurasının üzvi Oqtay Güləliyev də Əli Kərimlinin namizədliyinin irəli sürülməsi əleyhinə çıxış edib. Bu, o deməkdir ki, “Milli Şura” daxilində Cəmil Həsənlinin tərəfdarları daha çoxdur?***

- “Milli Şura” deyilən qurum elə, əslində, AXCP və ona çox yaxın olan qüvvələrdən ibarətdir. Daha yaxşı olardı ki, bunu AXCP adlandırsınlar. Çünki “Milli Şura” yarandığı gündən indiyə qədər dəyişikliklərə uğramış və quruca adı qalmışdır. Demək olar ki, elə “Milli Şura” daxilində Ə.Kərimliyə qarşı inam azdır. Əgər O.Güləliyev də Ə.Kərimli haqqında bu cür fikirlər səsləndirirsə orada digər onun kimi düşünənlər də var. Yəqin ki, “Milli Şura” daxilində Ə.Kərimlinin namizədlik məsələsi də olduqca çətin məsələ olacaqdır. Ola bilsin ki, yenə də əvvəlki kimi, ya C.Həsənlinin, ya da başqa birisinin namizədıiyini dəstəkləsinlər.

***- İsa Qəmbərin sağlamlıq durumu fonunda “Milli Şura” daxilində də Ə.Kərimliyə qarşı narazılıqlar mövcuddur. Bu baxımdan, necə düşünürsünüz, başqa namizədlər ortaya çıxa bilərmi?***

- “Milli Şura” və radikal müxalifətin digər qanadları birləşsələr də, onların bu seçkilərdə qalib olmaq şansları yoxdur. Çünki xalq tərəfindən heç bir siyasi dəstəyə malik deyillər. Bu baxımdan, müxalifətin seçkilərdə cüzi səs qazanması belə mümkünsüzdür. Çünki bu qüvvələr, artıq Azərbaycanın siyasi arenasında özlərini gözdən salmış qüvvələrdir. Uzun illərdir ki, adları çəkilən şəxslər müxalifətdədirlər və ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəlirlər. Onlar bu sual ətrafında heç vaxt düşünmürlər. Səbəb nədir? Səbəb isə, müxalifətin bu günə qədər normal partiya quruculuğu ilə məşğul olmamasıdır. Müxalifət ancaq iş görənlərin fəaliyyətinə kölgə salmaq və qara yaxmaqla məşğul olub. Ümumiyyətlə, bu gün müxalifət düşərgəsində olan partiyalar daxilində demokratizim yoxdur. Əgər həmin partiya daxilində demokratizm olsaydı, eyni sima 25 il partiya sədri ola bilməzdi. Seçkiləri uduzan partiyanın sədri dəyişməlidir. Amma bunlar seçkidən-seçkiyə ortaya çıxırlar və uduzub, yenə də çəkilirlər öz qınlarına. Bir sözlə, radikal müxalifətçilərin hamısı birləşsələr belə, ortaya güclü namizəd qoya bilməyəcəklər. Çünki xalqımız tərəfindən müxalifətin dəstəyi yoxdur.

***GÜLYANƏ***

# Xüsusi mülkiyyət hüququ

***Xeyriyyə fondları və başqa ictimai fondlar, təsərrüfat fəaliyyətindən əldə etdikləri gəlirlər də daxil olmaqla, öz vəsaitləri ilə aldıqları və ya yaratdıqları əmlak üzərində, habelə vətəndaşlar, hüquqi şəxslər və ya dövlət tərəfindən verilən, qanunun yol verdiyi başqa əsaslarla alınan əmlak üzərində mülkiyyət hüququna malikdirlər. Onlar öz mülkiyyətində olan əmlakdan istifadə haqqında hesabatları hamının tanış olması üçün dərc edirlər. Xeyriyyə fondları və başqa ictimai fondlar hüquqi şəxs sayılan müəssisə və idarələr yaratdıqda və ya aldıqda, habelə, xeyriyyə fondu və ya başqa ictimai fond ləğv edildikdə, bu Qanunun 17-ci maddəsinin müvafiq surətdə 2 və 3-cü bəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir.***

Hüquqi şəxslər sayılan diş təşkilatların mülkiyyətində binalar, ayin predmetləri, istehsal, sosial və xeyriyyə təyinatlı obyektlər, pul vəsaiti və onların fəaliyyəti üçün zəruri sayılan başqa əmlak ola bilər.

Dini təşkilatların öz vəsaitləri hesabına aldıqları və ya yaratdıqları, vətəndaşların, təşkilatların bağışladığı və ya dövlətin sahibliyə, istifadəyə və sərəncama verdiyi, yaxud qanunla yol verilən başqa əsaslarla alınmış əmlak üzərində mülkiyyət hüququ vardır.

Dini təşkilatların hüquqi şəxslər kimi yaratdıqları müəssisələrin və idarələrin özlərinə təhkim edilmiş əmlak üzərində tam təsərrüfat səlahiyyət hüququ və ya operativ idarəetmə hüququ vardır.

Xüsusi mülkiyyət hüququ. Respublikamızda mülkiyyət hüququnun mühüm formalarından biri də xüsusi mülkiyyət hüququdur. Xüsusi mülkiyyət hüququnun anlayışı "Azərbaycan Respublikasında mülkiyyət haqqında" Qanunda (23 aprel 2002-ci il tarixli, 311-IIQD nömrəli qanuna əsasən, qüvvədən düşmüşdür) verilmişdir. Həmin qanuna əsasən, xüsusi mülkiyyət hüququ istehsal vasitələrinə, qeyri-istehsal təyinatlı predmetlərə və sərvətlərə, pul vəsaitinə və qiymətli kağızlara, onlardan istifadə olunmasının nəticələrinə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam sahəsində ayrı-ayrı şəxslərin qanunla qorunan hüquqlarının məcmusudur. Respublika qanunvericiliyinə müvafiq olaraq, xüsusi mülkiyyət hüququ, öz növbəsində, vətəndaşların və hüquqi şəxslərin mülkiyyət hüququna bölünür.

Hazırda qüvvədə olan Azərbaycan Respublikası Konstitusiyası reallığı əks etdirərək, nə əmək hüququnu, nə də əməyə görə bölgü prinsipini əsas götürmür. Heç kəs zorla işlədilə bilməz. Eyni zamanda, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır (Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi). Dövlət əqli mülkiyyət hüququnun, yeni müəlliflik hüququ, ixtiraçılıq hüququnun və s. qorunmasına təminat verir. Buna uyğun olaraq, vətəndaşların mülkiyyət hüququnun təzahür formaları kimi, onun əmələgəlmə mənbələri də mühüm dəyişikliklərə uğramışdır. Hazırda vətəndaşların mülkiyyət hüququnun əsasını onların muzdlu işçi kimi əməyi və müstəqil iqtisadi fəaliyyəti təşkil edir. İqtisadi fəaliyyətdə də, öz növbəsində, qanuna uyğun olaraq, qeydiyyata alınmaqla əmlakdan istifadə, məhsulun satışı, işlər görülməsi və xidmətlər göstərilməsi yolu ilə müntəzəm gəlir əldə etmək məqsədilə, müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğulluq qeyd olunmalıdır. Sahibkarlıq fəaliyyəti muzdlu əməyi tətbiqetmə və ya etməmə yolu ilə həyata keçirilir. Yuxarıda deyilənləri nəzərə alsaq, demək olar ki, vətəndaşların xüsusi mülkiyyəti hazırda aşağıdakı formalarda özünü göstərir:

X istehsal vasitələrinin mülkiyyətçisinin, kimin olmasından asılı olmayaraq, ona təklif olunan muzdlu əmək - vətəndaşların mülkiyyətinin mənbəyi kimi;

X gəlir əldə olunmasına xidmət etməyən şəxsi iqtisadi fəaliyyət - vətəndaşların mülkiyyətinin mənbəyi kimi;

X şəxsi əməyə əsaslanan sahibkarlıq fəaliyyəti - vətəndaşların mülkiyyətinin mənbəyi kimi;

X muzdlu əməkdən istifadə etməklə, sahibkarlıq fəaliyyəti - vətəndaşların mülkiyyətinin mənbəyi kimi. Axırıncı - muzdlu əməkdən istifadə etməklə, sahibkarlıq fəaliyyəti həm hüquqi şəxs yaratmaqla, həm də yaratmamaqla ola bilər. Xüsusi mülkiyyətin bir növündən başqa növünə keçmək üçün qanun heç bir məhdudiyyət qoymur, əksinə, daha çox iqtisadi və sosial effekt verən sahəyə əməyin və kapitalın cəlb edilməsi dövlət tərəfindən həvəsləndirilir. Qeyd olunmalıdır ki, bir şəxsin xüsusi mülkiyyəti bir deyil, bir neçə mənbədən yarana bilər. Məsələn, vətəndaş təqaüdçü kimi pensiya, muzdlu işçi kimi əmək haqqı, səhmdar kimi dividend ala bilər və s. Vətəndaşların xüsusi mülkiyyət hüququ maddi nemətlərin fərdi mənsubiyyətini təsbit edən hüquqi institutdur. Xüsusi mülkiyyət hüququnun anlayışını mülkiyyətçinin əmlak və ondan istifadə olunmasının nəticələri üzərində öz mülahizəsinə görə sahiblik, istifadə və onlar barəsində sərəncam səlahiyyətləri təşkil edir. Onlardan hər biri mülkiyyətçiyə üçüncü şəxslərlə hüquq münasibətlərində konkret imkanları təmin edir. Bazar iqtisadiyyatı dövründə xüsusi mülkiyyətin obyektləri dairəsinin müəyyənləşməsinə münasibət qanunvericilik tərəfindən əhəmiyyətli dərəcədə dəyişilmişdir. Əvvəllər qüvvədə olan qanunvericiliyə görə, vətəndaşların mülkiyyəti özünün istehlak təyinatı ilə, əsasən, istehlak məhsullarına şamil edilirdi. O ki qaldı, istehsal vasitələrinə, zaman vətəndaş yalnız xırda istehsal vasitələrinin sahibi ola bilərdi və bu zaman muzdlu əməkdən istifadə qadağan olunurdu. İndi vəziyyət tamam dəyişmişdir. "Azərbaycan Respublikasında mülkiyyət haqqında" Qanundan başlayaraq, digər normativ aktlara qədər xüsusi mülkiyyətin inkişafını ləngidən bütün maneələr aradan qaldırılmışdır. Lakin xüsusi mülkiyyət hüququnun anlayış tutumu nə qədər böyük olsa da, onun öz sərhədləri vardır. Bu, mülki-hüquqi tənzimetmənin yol verilən və sərbəstlik prinsiplərindən irəli gəlir. Birinci prinsip o deməkdir ki, vətəndaş mülkiyyət hüququnu həyata keçirərkən, qanunla qadağan olunmayan hər şeyə yol verilir. Sərbəstlik prinsipi isə, vətəndaşın mülkiyyət hüququnu həyata keçirməsi və ya keçirməməsini öz mülahizəsinə görə həll etməsi, hüququn həyata keçirilməsi məqsədini və vasitələrini özünün seçməsi deməkdir. Subyektiv mülkiyyət hüququnun, onun həyata keçirilməsinin məqsəd və vasitələrinin sərhədlərinin genişləndirilməsi, heç də hər şeyə yol verilməsi demək deyildir. Vətəndaşların mülkiyyət hüququnun obyektlərindən, əsasən, istehlak təyinatı üzrə istifadə olunduğu dövrlərdə, mülkiyyət hüququnun həyata keçirilməsində ön plana mülkiyyətçinin sahiblik və istifadə səlahiyyətləri çəkilirdi. Mülkiyyətçi sərəncam hüququnun həyata keçirilməsinə çox nadir hallarda müraciət edirdi. Lakin sonralar bazar iqtisadiyyatına keçidlə əlaqədar mülkiyyətçinin bu vəziyyətində köklü dəyişikliklər baş verdi və o, sərəncam səlahiyyətlərindən daha çox istifadə etməyə başladı. Belə ki, çox vaxt məhsul istehsalı və ya onun əldə edilməsi gəlir əldə etmək məqsədilə bazarda satılmaq üçün nəzərdə tutulur. Mülkiyyət hüququnun obyektlərinin dövriyyə qabiliyyəti bazar iqtisadiyyatına uyğun olaraq daim yüksəlmiş olur. Mülki qanunvericilik xüsusi mülkiyyət hüququnun obyektləri üçün ümumi və xüsusi rejim müəyyən etmişdir. Əgər qanunda və ya digər normativ aktlarda vətəndaşların xüsusi mülkiyyətində olan obyektlər üçün xüsusi rejim nəzərdə tutulmamışdırsa, belə obyektlər ümumi rejim altına düşmüş olur. Hər şeydən əvvəl, daşınmaz əmlak xüsusi rejimdə olan əmlakdır (torpaq sahələri, yaşayış evləri, çoxillik əkmələr və s.). Göstərilən əmlaka əşya hüquqları, habelə, onlar üzərində bağlanan əqdlər dövlət qeydiyyatından keçməlidir. Torpaq sahələrinin əldə edilməsi üçün də xüsusi qaydalar nəzərdə tutulur. Qanunla müəyyən olunmuş qaydada daşınmaz əmlak əldə edəndən sonra mülkiyyətçi bir sıra mükəlləfiyyətlər yerinə yetirməli olur. Onlardan biri əmlaka görə vergidir. Xüsusi hüquqi rejim daşınmaz hesab olunmayan əmlaka da aid oluna bilər. Nəqliyyat vasitələri, odlu silah əldəetmə və s. obyektlər belə xüsusi rejimdə ola bilər. Xüsusi rejim belə obyektlərin qeydiyyatı və saxlanması, təhlükəsizlik qaydalarının gözlənilməsində və s. ifadə olunur.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***



Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Həkim: "45 yaşdan yuxarı olanların ürək xəstəliyinə tutulma riski daha yüksəkdir"



Son vaxtlar infarkt ən geniş yayılmış ürək xəstəliklərindən biridir. Lakin xəstənin infarkt keçirib-keçirmədiyini necə müəyyən etmək olar?

Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-kardioloqu Nərgiz Məmmədova bu barədə deyib: "Bəzən həkimlər də onu müəyyənləşdirməkdə çətinlik çəkirlər. Bunun üçün ilk növbədə analiz və elektrokardioqram müayinəsi lazım olur, çünki infarkt zamanı hökmən ağrı olması şərt deyil. Məsələn, şəkərli diabeti olan xəstələrdə infarkt ağrısız formada da gedə bilər, bəzən xəstələrin 30 faizində ağrı olmur. Digər tərəfdən də sinə nahiyəsində yandırıcı ağrı olmasının səbəbləri çoxdur və hər ağrını da ürəkağrısı kimi qəbul etmək olmaz.

Döş sümüyünün arxasında yandırıcı ağrı olduqda xəstəni rahat oturtmaq lazımdır. Həmin anda hərəkət etmək çox zərərlidir. Ağrının səbəbi bilinməsə də, onu ürəkağrısı kimi qəbul etmək lazımdır. Ona görə ki, başqa səbəblərdən olan ağrılar ürək üçün təhlükəli deyil. İlk növbədə ürəkağrısı aradan qaldırılmalıdır, çünki gecikmək ürək əzələsini itirmək deməkdir. Şəkərli diabet xəstələri, hipertoniyalı xəstələr, siqaret çəkənlər, ailəsində erkən ürək xəstəliyinə tutulanlar, 45 yaşdan yuxarı olanlar, xolesterini yüksək olanların ürək xəstəliyinə tutulma riski daha yüksəkdir".

## Stress hüceyrələrə zərər verir

Stress artıqında və adam əsəbiləşdiyini bədəndə dəyişikliklər meydana gəldiyini ifadə edən Demiray, Bunların ən əhəmiyyətlilərindən bir dənəsi də hüceyrələrin divarlarındakı enerjinin artımının. Hüceyrə divarındakı elektrik enerjinin artması hüceyrələrə zərər verməkdədir. Uzun müddət stress və yüksək doza da sinirə məruz qalındıqın da elektrik enerji bədənimizdə yığılır. Bu yığılan enerjini sürətlə bədəninizdən uzaqlaşdırmaq məcburiyyətindəsiniz. Enerji bədəninizdə qaldıqca hüceyrələrinizə və sizə zərər verər bilər dedi.



**Stresliykən gözəl düşüncələrə diqqət edin**

Adam nə qədər sağlam və xoşbəxt olursa olsun. Hüceyrələrinin də o qədər sağlam olacağını dilə gətirən. Demiray, stressə məruz qalınan zamanlarda, adamın həyatıyla əlaqədar müsbət, gözəl düşüncələrə diqqət etməsi, sevilən insanların ağla gətirilməsinin əhəmiyyətli olduğunu ifadə edir. Stress və hirsin xərçəng nisbətlərini artırmada əhəmiyyətli bir amill olduğunu ifadə edən Demiray, "Stress və sinir insan bədənində mənfi təsirli enerjini və mobil səviyyədə transmembrane enerjini artırır. Zamanla hüceyrələr zərər görməyə başlayır. Xərçəngli hüceyrələrlə normal hüceyrələr arasındakı ən əhəmiyyətli fərqlərdən biri hüceyrə divarlarındakı enerjinin fərqliliyidir. Xərçəng hüceyrələri, normal hüceyrələrdən 7 - 8 qat daha çox hüceyrə divarı enerjisinə malikdir. Hər stress vəziyyəti yaşadıqınızda və əsəbiləşdiyinizdə hüceyrələr, xərçəng hüceyrələrinə bənzər xüsusiyyətlərə sahib olur. Hüceyrələrdəki enerjinin normala dönməsi üçün lüt ayaqla torpağa təmas edib bədəninizdəki enerjini boşaltsanız rahatlamağa başlarsınız "dedi.

## ELAN

Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Baxışov Rauf Rafail oğlunun adına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nin "Filologiya" fakültəsinin II kurs tələbəsi Abbasova Xəyalə Əlixan qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan Qran Prisinin turnir cədvəli açıqlanıb



"Formula One Group" (FOM) 2018-ci il mövsümündə Formula-1 yarışlarının turnir cədvəlini təsdiq edib. SİA-nın məlumatına görə, ötən illərin cədvəli ilə müqayisədə iki əhəmiyyətli dəyişiklik edilib. Əvvələn, bütün yürüşlər saatın tamamından 10 dəqiqə sonra start götürəcək. "Liberty Media"da hesab edirlər ki, bu 10 dəqiqə yarışa marağı, o cümlədən yayımın formatında dəyişikliklər hesabına artırmaqda teleşirkətlərə kömək edəcək. İkincisi, Avropa mərhələ yarışlarının vaxtı həmişəki vaxtdan 1 saat sonraya keçirilib. Braziliya yürüşü də adi vaxtından bir saat sonra start götürəcək. Digər cüzi dəyişikliklər imkan verəcək ki, yürüşlər başqa iri idman hadisələri, o cümlədən futbol üzrə dünya çempionatı ilə bir vaxta düşməsin və Qran Pri promoutorlarının istəkləri nəzərə alınsın.

Qeyd edək ki, Azərbaycan Qran Prisi aprelin 27-29-da keçiriləcək. Birinci sessiya yerli vaxtla 13:00-14:30-da, ikinci sessiya 17:00-18:30-da, üçüncü sessiya 14:00-15:00-da, təsnifat 17:00-18:00-da, yürüş 16:10-da nəzərdə tutulub.



## Boks üzrə Azərbaycan millisi hazırlığa başlayır

Kişi boksçulardan ibarət Azərbaycan millisi fevralın 4-də təlim-məşq toplanışına start verəcək. Komandamızın baş məşqçisi Leonid Loivski hazırlığa 23 boksçu cəlb edib. Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən xəbərə görə, bunlar ölkə çempionatının finalçıları, həmçinin həlledici görüşdə döyüşməyən, lakin öz çıxışları ilə məşqçilər korpusunun diqqətini cəlb edən idmançılardır. Bakıda, Boks Mərkəzində təşkil olunacaq məşqlər fevralın 16-dək davam edəcək.

Toplanış Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək "Strandja" turnirinə hazırlıq məqsədi daşıyır. Bu yarış fevralın 18-dən 26-dək keçiriləcək.

## Məsut Özil "Arsenal" ilə müqaviləni yeniləyib




Məsut Özil "Arsenal" futbol klubu ilə müqaviləni yeniləyib. Futbolçunun rəsmi "Instagram" səhifəsində yer alan xəbərə görə, 29 yaşlı futbolçu İngiltərə təmsilçisi ilə 2020-2021-ci il mövsümünün sonunadək müqavilə imzalayıb. Qeyd edək ki, Özil klubun ən çox məvacib olan futbolçusu olub. Belə ki, futbolçu həftəyə vergi tutulduqdan sonra 350 min funt məvacib alacaq.




## "Neymara rəqibə hörmət etməyi öyrədə bilmədik"

Fransa Liqa Kubokunun yarımfinal mərhələsində PSJ-nin hücumçusu Neymarın hərəkəti futbol ictimaiyyətinin gündəmindən düşmür. Apasport.az saytının xarici mətbuata istinadən məlumatına görə, "Renn"lə qarşılaşmanın sonlarında sarı vərəqə alan braziliyalı kobud oynadığı müdafiəçi Amari Traoreyə hörmətsizlik edib. Belə ki, yerə yıxılan rəqibə əvvəlcə əlini uzadan Neymar daha sonra onu ayağa qaldırmaq əvəzinə əlini çəkib və bu hərəkətini gülüşlə qarşılayıb. Ulduz futbolçunun "Barselona"dakı sabiq komanda yoldaşı Xavi Ernandes bunu doğru hərəkət saymayanlardandı. O, "sambaçı"nın məhz belə xarakterinə görə "Barsa"dan ayrıldığını düşünür: "Neymarın hərəkətinə məyus oldum. Ümid edirəm ki, zaman ona rəqiblərə daha çox hörmət etməyi öyrədər. Biz Neymarı "Barselona"da öyrədə bilmədik. Bəlkə də, elə buna görə o, komandanı tərk etdi. Bu qərar hamı üçün ən doğrusu idi. Belə hərəkətlər böyük futbolçuları kiçik oyunçu edir". Qeyd edək ki, "Renn" üzərində 3:2 hesablı qələbə qazanan PSJ Fransa Liqa Kubokunda finala adlayıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**